RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 184 (9639) 28 avqust 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan - Moldova əməkdaşlığının inkişafı və zənginləşməsi üçün yaxşı imkanlar var



### Moldova Respublikasının Prezidenti zati-aliləri xanım Maya Sanduya

Hörmətli xanım Prezident!

Moldova Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Moldova arasında dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Sağlam təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz, bir sıra sahələrdə səmərəli əməkdaşlığımız ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edir.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın inkişafı və yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, mövcud imkanlardan yararlanaraq Azərbaycan-Moldova ənənəvi dostluq və tərəfdaşlıq münasibətlərinin həm ikitərəfli, həm də çoxtərəfli əsasda inkişafı və genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Moldova xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 avqust 2024-cü il*

## Müstəqil siyasət, etibarlı tərəfdaş, ləyaqətli ölkə

### Uğurlu xarici siyasət ölkəmizin qlobal imicini möhkəmləndirir

Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə isə milli gücünün artmasını təmin edib. Bununla yanaşı, tarazlaşdırılmış və milli maraqlara əsaslanan siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənib. Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrini uğurla davam etdirir.

→ 7



# Strateji tərəfdaşlıq güclənir, qlobal nüfuz artır

## Azərbaycanın müttəfiqlərinin coğrafiyası genişlənir

Azərbaycanı tarixinin ən qədrətli dövlətinə çevirən Prezident İlham Əliyev hadisələri düzgün analizetmə, dorğu qərarvermə bacarığı, uğurlu diplomatiyası ilə Azərbaycanı həm də dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Bunun yeganə səbəbi İlham Əliyevin sözünə sadiq lider olduğunu dəfələrlə təsdiqləməsidir.

Çoxvektorlu və ya balanslaşdırılmış xarici siyasət strategiyası Azərbaycanın markasına çevrilib desək, yanılmarıq. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş və hər kəslə öz milli maraqlarına əsaslanan münasibət qurmağa yönəlmiş çoxtərəfli xarici siyasət kursu Azərbaycanı dünyada söz sahiblərindən birinə çevirib.

Təkcə son iki ayda Azərbaycanın xarici siyasətinin uğurlarına nəzər yetirsək aydın şəkildə görə bilərik ki, ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Həmçinin Azərbaycan da bir çox böyük dövlətlərlə srtateji tərəfdaşlığını gücləndirməkdə maraqlıdır.

İlk olaraq Azərbaycanın BRICS-ə (BRİKS) daxil olmaq üçün rəsmi müraciətinə diqqət edək. İyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayıb.

BRICS 2006-cı ildə yaradılıb, Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirliklərini özündə birləşdirən hökumətlərarası təşkilatdır. Əvvəlcə investisiya imkanlarını müəyyən edən qruplaşma hökumətləri 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri koordinasiya edən vahid geosiyasi bloka çevrilib.

Ankaranın Hacı Bayram Vəli Universitetinin dosenti Levent Ersin Orallı hesab edir ki, Azərbaycanın BRICS-in Qərblə əlaqələrində əsas oyunçuya çevrilmək üçün bütün imkanları var və bu baxımdan Bakının rolu yalnız artacaq. Onun fikrincə, Azərbaycan BRICS-ə müraciət edərkən respublikanın gələcək inkişafının iqtisadi modelinin bu təşkilatın vektorunu nəzərə alacağını açıq şəkildə bildirib: "BRICS nöqteyi-nəzərindən "sabitlik" sözünün ən çox aid olduğu iki ölkə var. Bu, Çin və Azərbaycandır. Əgər BRICS ölkələri Qərb dövlətləri ilə münasibətlərdə sıçrayışa nail olmağı hədəfləyirsə, bunun üçün ən düzgün platforma güclü iqtisadiyyata və dünyanın bir çox dövlətləri ilə yüksək səviyyədə münasibətlərə malik olan Azərbaycandır".

Açığını desək, Azərbaycan ilə Çin arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığın kifayət qədər böyük potensialı var. Rəsmi Bakı Pekini təkcə dost ölkə deyil, həm də texnoloji tərəqqinin mənbəyi kimi qəbul edir. Eyni zamanda ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün daha geniş imkanlar mövcuddur.

→ 7

## Mehriban Əliyeva həmvətənləri arasında və xaricdə yüksək nüfuza malikdir



### Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Hörmətli Mehriban Arif qızı!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Siz haqlı olaraq həmvətənləriniz arasında və xaricdə yüksək nüfuza maliksiniz.

Rusiyada Sizin ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə, müxtəlif sahələrdə ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığa şəxsi töhfənizi yüksək qiymətləndirirlər.

Bu yaxınlarda Bakıda keçirdiyimiz görüşü məmnunluqla xatırlayıram. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. İlham Heydər oğluna və bütün ailə üzvlərinizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Fransa demokratiya yox, repressiyalar ölkəsidir

Hazırda bu hadisə elə Qərbin özündə tanınmış insanlar tərəfindən ciddi şəkildə qınanır. Məsələn, "X" sosial platformasının, "Tesla" və "SpaceX" kimi şirkətlərin sahibi, tanınmış milyarder İlon Mask özünün sosial şəbəkə hesabında bu barədə paylaşım edərək, Fransanı Pavel Durovu azad etməyə çağırıb.

İş o yerə çatıb ki, Fransa prezidenti Emmanuel Makron məsələ ilə bağlı açıqlama vermək məcburiyyətində qalıb. "X" sosial şəbəkəsindəki paylaşımında o, teleqram rəhbərinin saxlanılmasının hüquqi araşdırma çərçivəsində baş tutduğunu bildirib və bunun siyasi qərar olmadığını vurğulayıb.

Fransa prezidenti dünyada qeyri-ciddi siyasi fiqur kimi tanındığından onun açıqlaması da ciddi qəbul olunmur və Pavel Durovun həbsinin sifarişli olması heç də şübhə doğurmur. Rusiya Dövlət Dumasının Sədri Vyaçeslav Volodin də həbsin siyasi motivli olması qənaətindədir. Onun fikrincə, həbsin arxasında ABŞ dayanır. "Əslində, Durovun həbsinin arxasında Vaşinqton dayanır. teleqram ABŞ-nin heç bir təsiri olmayan azsaylı və eyni zamanda ən böyük internet platformalarından biridir. Eyni zamanda, onları maraqlandıran bir çox ölkələrdə fəaliyyət göstərir. ABŞ-də prezident seçkiləri ərəfəsində Baydenin teleqrama nəzarəti ələ almasını vacib bilirlər", - deyə Vyaçeslav Volodin özünün teleqram kanalında yazıb.

Vyaçeslav Volodin onu da əlavə edib ki, sosial şəbəkələrdə izləmə və senzura Vaşinqtonun idarəetmə və təsir üçün ənənəvi vasitələridir. Maraqlıdır ki, Qərbin insan hüquqlarının müdafiəsi adı altında fəaliyyət göstərən təşkilatları indiyə qədər bu hadisəyə münasibət bildirməyiblər. Demokratiyanı özünün əsas prinsiplərindən biri kimi qəbul edən Avropa İttifaqı sıralarında təmsil olunan Fransanın insan hüquqlarını kobud şəkildə pozmasını sükutla qarşılayır. O cümlədən ABŞ siyasi dairələri susurlar.

→ 8

## Sürətin 8-ci zirvəsi

### Bakı növbəti "Formula-1"ə hazırlaşır

Ölkəmizin sayca 8-ci dəfə evsahibliyi edəcəyi, cari mövsümün 17-ci mərhələsi olacaq "Formula-1"in dünyada artıq Azərbaycan modeli yaranıb. 2016-cı ildən etibarən ölkəmizdə keçirilən "Formula-1" Qran-prisi həm ölkəmizin tanıdılmasına, həm də iqtisadiyyatın inkişafına böyük töhfə verib. Sürət yarışı Azərbaycanın görməli və tarixi yerlərinin, istirahət-kurort imkanlarının, mükəmməl mətbəx və gözəl təbiətinin təbliğində, eləcə də ölkənin xidmət sektorunun inkişafında müsbət rol oynayıb.

→ 11



## Palçığın vulkan möcüzəsi

### Azərbaycan təbiətinin bu nadir incisi xarici turistləri də heyran edir



Prezident İlham Əliyev 2024-cü ilin 13 iyununda Abşeron rayonunda yerləşən Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib. Müasir tələblərə cavab verən bu kompleks 12 hektar ərazini əhatə edir. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib. Kompleksin Turizm İnformasiya Mərkəzi sərgi zalından və emalatxanadan ibarətdir.

→ 5

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 89 nömrəli və 23 iyul tarixli 153 nömrəli fərmanları) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.9-cu bənddə "62.3" rəqəmləri "62.2-ci maddələrində, 62.3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 65.2-ci maddəsinin ikinci cümləsində" sözləri ilə əvəz edilsin.
2. 2.11-ci bənddə "63.3, 65.2" rəqəmləri "63.3-cü maddəsində, 65.2-ci maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2024-cü il*

## Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - Xidmət) əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır;

2.2. əsasnaməsi, strukturu və işçilərinin say həddi təsdiq edilənədək Agentlik Xidmətin mövcud əsasnaməsi, strukturu, işçilərinin say həddi, vəzifə maaşları, əməyin ödənilməsi sistemi tətbiq edilməklə fəaliyyət göstərir;

2.3. Xidmətin regional bölmələri və strukturuna daxil olmayan tabeliyindəki qurumlar Agentliyin əsasnaməsi və strukturu təsdiq edilənədək mövcud əsasnamələri (nizamnamələri) əsasında Agentliyin regional bölmələri və strukturuna daxil olmayan tabeliyindəki qurumlar kimi fəaliyyətlərini davam etdirirlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Agentliyin əsasnaməsinin layihəsini, strukturu və işçilərinin say həddi barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Agentliyin yaradılması ilə əlaqədar normativ hüquqi aktların uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Xidmətin balansında olan dövlət əmlakının Agentliyin balansına verilməsini təmin etsin;

3.4. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında Xidmət üçün nəzərdə tutulmuş maliyyələşmənin qalıq hissəsinin Agentliyə ayrılmasını təmin etmək üçün tədbirlər görsün;

3.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2024-cü il*

## COP29-un Təşkilat Komitəsinin sədri Samir Nuriyevin rəhbərliyi altında komitənin bir sıra üzvləri Bakı Olimpiya Stadionuna baş çəkiblər









Avqustun 27-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin sədri Samir Nuriyevin rəhbərliyi altında Təşkilat Komitəsinin bir sıra üzvləri Bakı Olimpiya Stadionuna baş çəkiblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən hazırlıq prosesinin gedişatı barədə təqdimat keçirilib. Sonra Prezident Administrasiyasının rəhbəri və onu müşayiət edən şəxslər Mavi və Yaşıl zonalar, o cümlədən Liderlər Sammiti, ölkə pavilyonları, plenar zallar, əlavə tədbirlər, media üçün ayrılmış məkan və digər məntəqələrə baxış keçirib, infrastrukturun qurulması üzrə aparılan işlərlə tanış olublar.

Sonda Təşkilat Komitəsinin sədri Samir Nuriyev aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.



## Ankarada Azərbaycan və Türkiyənin xarici işlər nazirlərinin görüşü olub

Avqustun 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Hakan Fidanla görüşüb.



AZƏRTAC xəbər verir ki, görüş zamanı tərəflər iki ölkə arasında mövcud müttəfiqlik münasibətlərinin siyasi, təhlükəsizlik, müdafiə, iqtisadi-ticari, enerji, nəqliyyat-kommunikasiya, humanitar və s. aspektlərini, habelə regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq əlaqələrinə əsaslanan strateji müttəfiqliyin inkişafında iki ölkə liderlərinin arasında mövcud siyasi dialoqun, qarşılıqlı səfər və təmasların əhəmiyyəti vurğulanıb.

Müttəfiqliyimizi təsbit edən tarixi Şuşa Bəyannaməsinin artıq bir sıra sahələrdə əməkdaşlıq perspektivlərinin inkişafında praktiki nəticələr verdiyi məmnunluqla qeyd olunub.

Azərbaycan və Türkiyə liderlərinin ideya müəllifləri olduğu Türkiyə-Azərbaycan Universitetinə bu il tələbə qəbulunun həyata keçirilməsi, yüksək balla tələbələrin qəbulu məmnunluqla qeyd edilib. Universitetə böyük maraq təqdir olunub, təhsil sahəsində əməkdaşlığa əlavə stimul yaradacağı vurğulanıb.

İkitərəfli əməkdaşlığımızın BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və s. kimi regional və beynəlxalq təşkilatlarla yanaşı, bir sıra digər çoxtərəfli formatlar çərçivəsində davam etdirildiyi diqqətə çatdırılıb. Ölkəmizin, xüsusilə ailəmiz hesab etdiyimiz Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əməkdaşlığın inkişafını diqqət mərkəzində saxladığı qeyd olunub. Bununla yanaşı, üçtərəfli və dördtərəfli formatlarda əməkdaşlığın regional sabitlik və təhlükəsizliyə ciddi töhfələr verdiyi bildirilib.

Nazir Ceyhun Bayramov həmçinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrlik fəaliyyətimizdən ətraflı bəhs edib.

Qarşı tərəf, o cümlədən postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, regional sülh və normallaşma gündəliyinə təhdidlər barədə məlumatlandırılıb. Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın, eləcə də qardaş Türkiyənin ərazi bütövlüyünə davam edən iddiaların, habelə Ermənistanın kütləvi hərbiləşmə siyasətinin sülh prosesinə əsas hədələr olduğu diqqətə çatdırılıb.

44 günlük Vətən müharibəsində Türkiyə tərəfindən Azərbaycana göstərilmiş siyasi və mənəvi dəstəklə yanaşı, Qarabağ bölgəsində davam etdirilən yenidənqurma və bərpa işlərində aktiv iştirakın yüksək qiymətləndirildiyi qeyd olunub.

Bununla yanaşı, görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlərə dair fikir mübadiləsi aparılıb.

Avqustun 27-də, çərşənbə axşamı Ankarada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə XİN-in başçısı Hakan Fidan arasında danışıqlar olub.

AZƏRTAC xəbər verir ki, xarici işlər nazirlərinin görüşü Türkiyə XİN-in inzibati binasında baş tutub.

Türkiyənin xarici siyasət idarəsi görüş ərəfəsində bildirmişdi ki, Bayramov və Fidan ikitərəfli münasibətləri və regional məsələləri müzakirə edəcəklər.

Azərbaycan və Türkiyənin xarici işlər nazirlərinin bundan öncəki görüşü iyulun 5-də Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü çərçivəsində baş tutmuşdu.

*Hakan FİDAN:*

## "Türkiyə və Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin təmin olunmasının tərəfdarıdır"

Türkiyə və Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunmasının tərəfdarıdır. Əminəm ki, ölkələrimizin qardaşlığı bundan sonra da regional sabitliyə öz töhfəsini verəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Hakan Fidan Ankarada azərbaycanlı həmkarı Ceyhun Bayramov ilə danışıqların yekunlarına dair brifinqdə bildirib.

Onun sözlərinə görə, Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbəri ilə danışıqlar zamanı ikitərəfli əməkdaşlıq məsələləri, o cümlədən birgə layihələrin icrasının gedişi müzakirə olunub. Bakı ilə İrəvan arasında danışıqlar prosesinin vəziyyəti, regionda və beynəlxalq aləmdə vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. "Biz Azərbaycanla əlaqələrin səviyyəsindən məmnunuq. Ölkələrimiz qarşılıqlı faydalı əməkdaşlığın inkişafı məsələsində ümumi strategiyaya sadiqdirlər", - deyə türkiyəli nazir qeyd edib.

Hakan Fidan deyib ki, Türkiyə və Azərbaycan liderləri tərəfindən 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətləri müttəfiqlik səviyyəsinə gətirib.

Türkiyə diplomatiyasının rəhbəri ölkəsinin Azərbaycanla ikitərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bir daha vurğulayıb. "Əminəm ki, ölkələrimizin rifahı naminə sıx əməkdaşlıq edərək dostluq və qardaşlıq bağlarını bundan sonra da möhkəmləndirəcəyik", - deyə o əlavə edib.

Türkiyənin xarici işlər naziri ilk fürsətdə yenidən qardaş Azərbaycana səfər edəcəyini bildirib.

## Şəki Rayon Prokurorluğunun yeni inzibati binası istifadəyə verilib

Avqustun 27-də Şəki Rayon Prokurorluğunun yeni inzibati binası istifadəyə verilib. Açılış mərasimində Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev iştirak edib. Tədbirə həmçinin digər dövlət və hüquq-mühafizə orqanlarının əməkdaşları qatılıblar.




AZƏRTAC xəbər verir ki, əvvəlcə mərasim iştirakçıları yeni inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.

Tədbiri açan Azərbaycan Respublikası baş prokuroru Kamran Əliyev qeyd edib ki, milli prokurorluq orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub. Bildirilib ki, Şəki Rayon Prokurorluğunun inzibati binasının istifadəyə verilməsi çox əlamətdar bir dövrə - prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə təsadüf edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi daimi diqqət və qayğıdan bəhs edən baş prokuror dövlətə və dövlətçiliyə sadiq olan prokurorluq orqanlarının fəaliyyətində qanunçuluğu rəhbər tutduğunu qeyd edib. Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Daha sonra iştirakçılar Şəki Rayon Prokurorluğu üçün yeni tikilmiş binada yaradılan şəraitlə tanış olublar.

Baş prokuror prokurorluq orqanlarının istifadəsinə verilmiş, müasir standartlara cavab verən və kriminalistik avadanlıqlarla təchiz olunmuş yeni xidməti avtomobillərə baxış keçirib.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının vətəndaş qəbulu mərkəzində 2024-cü ilin sentyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 6,13,20 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 6,19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 20 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 20 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 23 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 24 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 25 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 27 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 27 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Baş prokuror Şəkidə vətəndaşları qəbul edib



Avqustun 27-də baş prokuror Kamran Əliyev Şəki Rayon Prokurorluğunun inzibati binasında Şəki, Oğuz rayon, Mingəçevir şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, qəbulda iştirak edən 39 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb. Baş prokuror prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq, işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Dövlət komitəsinin sədri Siyəzən və Xızıdan olan vətəndaşlarla görüşüb



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova avqustun 27-də Siyəzən rayon Gənclər evində Siyəzən və Xızı rayonlarından olan vətəndaşları qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət komitəsinin aidiyyəti struktur bölmə əməkdaşının da iştirak etdiyi qəbulda vətəndaşların ailədaxili məsələlər, uşaqla ünsiyyət, işlə təmin olunma, boşanmadan sonra yaranan hüquqi problemlərin həlli və digər məsələlərlə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi üçün müvafiq tapşırıqlar verilib, həlli araşdırma tələb edən müraciətlər qeydə alınaraq icraata götürülüb. Dövlət komitəsinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

# Hərbi Hava Qüvvələrində döyüş atışlı təlim keçirilib

Cari ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə döyüş atışlı təlim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, uçuşdan əvvəl tapşırıqlar xəritə üzərində dəqiqləşdirilib, hədəf hesabatı aparılıb və şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb. Plana uyğun olaraq, helikopter bölmələri qrup şəklində bazalanma aerodromundan uçuşlar edərək, poliqonda şərti düşmənin yerüstü hədəflərinin məhv edilməsi üzrə tapşırıqları yerinə yetiriblər.

Helikopter ekipajlarının döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin sentyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Ucar** | Ucar, Kürdəmir, Zərdab | **05** |
| 2. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad | **05** |
| 3. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **İmişli** | İmişli, Saatlı, Sabirabad, Beyləqan, Füzuli, Biləsuvar, Cəbrayıl, Xocavənd | **06** |
| 4. | **Baş prokuror** Kamran Əliyev | **Abşeron** | Abşeron, Zəngilan | **10** |
| 5. | **Energetika naziri** Pərviz Şahbazov | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | **12** |
| 6. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **12** |
| 7. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Gəncə** | Gəncə, Naftalan, Goranboy, Samux, Göygöl, Daşkəsən, Xocalı, Kəlbəcər | **12** |
| 8. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **12** |
| 9. | **Mədəniyyət naziri** Adil Kərimli | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **13** |
| 10. | **Baş prokuror** Kamran Əliyev | **Xızı** | Xızı, Siyəzən, Şabran | **17** |
| 11. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Yevlax** | Yevlax, Mingəçevir, Ağdaş, Ucar, Kürdəmir | **19** |
| 12. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Göygöl** | Göygöl, Daşkəsən | **19** |
| 13. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Ağsu** | Ağsu, İsmayıllı | **20** |
| 14. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Qobustan** | Qobustan, Şamaxı | **20** |
| 15. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Şirvan** | Şirvan, Hacıqabul | **20** |
| 16. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **20** |
| 17. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Şamaxı** | Şamaxı, Ağsu, Qobustan | **20** |
| 18. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | **20** |
| 19. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Goranboy** | Goranboy, Naftalan, Xocalı | **23** |
| 20. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Quba** | Quba, Qusar | **23** |
| 21. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **25** |
| 22. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Şamaxı** | Şamaxı, Qobustan | **25** |
| 23. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Ağcabədi** | Ağcabədi, Ağdam, Tərtər, Füzuli, Laçın, Cəbrayıl | **25** |
| 24. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Göygöl** | Göygöl, Daşkəsən, Samux, Goranboy, Naftalan, Xocalı | **26** |
| 25. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Balakən** | Balakən, Zaqatala | **26** |
| 26. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Qəbələ** | Qəbələ, Oğuz | **26** |
| 27. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Balakən** | Balakən, Şəki, Qax, Zaqatala, Oğuz, Qəbələ | **30** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Pakistan-Azərbaycan biznes-forumu ilə bağlı məsələlər müzakirə olunub

Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov İslamabadda bu ölkənin federal ticarət naziri Cam Kamal Xan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə sentyabrın 16-da Bakıda keçirilməsi planlaşdırılan Pakistan-Azərbaycan biznes-forumu ilə bağlı məsələlər müzakirə olunub.

Səfir Xəzər Fərhadov pakistanlı iştirakçılar üçün viza rejiminin sadələşdiriləcəyini bildirərək, ölkələrimiz arasında bərpaolunan enerji və infrastruktur da daxil olmaqla bir çox sahələrdə əməkdaşlığın inkişaf etməsi üçün şəraitin mövcudluğunu diqqətə çatdırıb. Diplomat həmçinin bildirib ki, Azərbaycan-Pakistan Ticarət Palatasının qarşıdan gələn açılış mərasimi keçiriləcək.

Söhbət zamanı əməkdaşlıq imkanlarının əhəmiyyətli dərəcədə artırılması üçün prosesə Pakistanın özəl sektorunun da cəlb olunmasının vacibliyi vurğulanıb.

Pakistanın ticarət naziri Cam Kamal Xan forumla bağlı nikbinliyini ifadə edib, onu ölkələrarası ticarətin genişləndirilməsi, Azərbaycan ilə Pakistan arasında davamlı iqtisadi əməkdaşlıq üçün zəmin yaradılması istiqamətində mühüm addım kimi qiymətləndirib. Qeyd olunub ki, o və investisiya naziri Əbdül Alim Xan Bakıda keçiriləcək biznes-forumda iştirak edəcəklər.

Forumda düyü, meyvə, tərəvəz, emal olunmuş qida məhsulları, əczaçılıq, cərrahiyyə ləvazimatları, şüşə məmulatları, keramika, kimyəvi maddələr, nəqliyyat və logistika, informasiya texnologiyaları, mühəndislik avadanlıqları və digər sahələri əhatə edən 43 Pakistan şirkətinin iştirakı təsdiqlənib.

Tədbirdə ölkələr arasında biznes imkanları araşdırılacaq və iki ölkənin ticarət əlaqələrinin gücləndirilməsi üçün addımlar atılacaq.

# Mina təhlükəsi ilə mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi xüsusi önəm daşıyır

Mina və partlamamış hərbi sursat təhlükəsi ilə mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq qurumlarla əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsi məqsədilə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanovun rəhbərlik etdiyi nümayəndə heyətinin növbəti səfəri Vyetnam Sosialist Respublikasına baş tutub.

ANAMA-dan verilən məlumata görə, səfər çərçivəsində Vyetnam Minatəmizləmə Mərkəzi və Quang Tri Minatəmizləmə Mərkəzinin rəsmiləri ilə görüşlər keçirilib.

Qeyd edək ki, Vyetnam mina və müharibənin digər partlayıcı qalıqları təhlükəsi ilə üzləşmiş və bu təhlükəyə qarşı mübarizə sahəsində uzunmüddətli təcrübəyə malik ölkələrdən biridir.

Mina təhlükəsi ilə mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və bu sahədə tərəfdaşlığın genişləndirilməsi, əldə edilən yeniliklərin minatəmizləmə fəaliyyətində tətbiqi agentlik üçün xüsusi önəm daşıyır.

Görüşlərdə bu sahədə qabaqcıl təcrübə mübadiləsi, sıx əməkdaşlıq əlaqələrinin yaradılması və inkişaf etdirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin nümayəndə heyəti ölkəmizdə mövcud mina və müharibənin digər partlayıcı qalıqları problemini gündəmə gətirərək, bu problemin aradan qaldırılması istiqamətində icra edilən fəaliyyət, tətbiq edilən metodologiyalar, habelə humanitar minatəmizləmə sahəsində keçirilən təlimlər barədə məlumat verib.

Agentliyin nümayəndə heyətinin bu istiqamətdə növbəti görüşləri Kamboca Krallığına səfər çərçivəsində davam edəcək.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



Avqustun 27-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın avqustun 22-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd barədə məlumatın seçki dairəsinin məntəqə seçki komissiyalarının məlumat lövhələrində yerləşdirilməsi məsələsinə baxılıb. Bildirilib ki, sözügedən seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəsiman Qara oğlu Yaqublu cari il avqustun 25-də yol-nəqliyyat hadisəsi nəticəsində vəfat edib. Eyni zamanda diqqətə çatdırılıb ki, seçki bülletenləri qanunvericilikdə nəzərdə tutulan müddətdə çap olunaraq seçki dairələrinin dairə seçki komissiyalarına çatdırılıb. Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərinə əsasən, yuxarıda göstərilənlərə dair müvafiq məlumatın seçki dairəsinin məntəqə seçki komissiyalarının məlumat lövhəsində yerləşdirilməsinə qərar verib və qərarın icrası 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin dairə seçki komissiyasına həvalə olunub.

İclasda qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətə də baxılıb. Beynəlxalq müşahidə missiyası təmsilçiləri, media mənsubları və maraqlı subyektlərin bilavasitə iştirakı ilə komissiya üzvlərinin geniş müzakirəsi nəticəsində, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün müraciətlə bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq qərar qəbul edilib.

İclasın sonunda həmçinin cari məsələlərə baxılıb.

QƏRAR № 33/154

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 22 avqust tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 22 avqust tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*27.08.2024*

## Seçkilərlə əlaqədar veb-kameralara texniki nəzarət mərkəzinə baxış olub

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev qarşıdan gələn Milli Məclisə seçkilərlə əlaqədar avqustun 27-də komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçiriblər.

AZƏRTAC xəbər verir ki, onlar proseslərin gedişi ilə yaxından tanış olub, seçkilərin şəffaflığının təmin edilməsində mühüm əhəmiyyət daşıyan veb-kameraların quraşdırılmasında seçki qanunvericiliyinin tələblərinə dəqiqliklə riayət olunmasının önəmini vurğulayıb və zəruri tövsiyələrini mütəxəssislərin diqqətinə çatdırıblar.

Milli Məclisə seçkilərdə veb-kameraların tətbiqi layihəsini sıx əməkdaşlıq şəraitində birgə reallaşdıran qurumların rəhbərlərinə veb-kameraların quraşdırılması, tənzimlənməsi və seçki gününə tam hazır vəziyyətə gətirilməsi istiqamətində intensiv şəkildə aparılan son hazırlıq işləri barədə məlumat verilib.

Media mənsublarının operativ işıqlandırdıqları tədbirdə bildirilib ki, Azərbaycanda keçirilən seçkilər daim fərqli aşkarlıq institutlarının, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, media nümayəndələrinin sərbəst iştirakı ilə xarakterizə olunub. İnformasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin uğurla tətbiqi nəticəsində şəffaflığın miqyası daha da genişlənib, bütün seçki günü proseslərini hər hansı bir maneə ilə rastlaşmadan, əvvəldən axıradək fasiləsiz müşahidə aparmaq imkanı yaranıb.

Qeyd olunub ki, ilk dəfə ölkəmizin bütün suveren ərazilərində keçirilməklə əlamətdar ictimai-siyasi hadisəyə çevrilən Milli Məclisə seçkilərdə də müxtəlif metod və vasitələrdən istifadə edilməklə şəffaflığın yüksək səviyyədə təminatına xüsusi diqqət yetirilib. Belə ki, 16 ildir müvəffəqiyyətlə reallaşdırılan və səmərəliliyi ilə öz təsdiqini tapmış veb-kamera layihəsi qarşıdan gələn seçkilərdə də davam etdirilir. Seçki günü - sentyabrın 1-də səsvermə məntəqələrində proseslərin tamamilə müşahidə edilməsi məqsədilə 1000 seçki məntəqəsində texniki parametrləri daha da gücləndirilərək təkmilləşdirilmiş və yüksək görüntü effektinə malik veb-kamera quraşdırılıb. İnternet istifadəçiləri seçki günü istər ölkə daxilindən, istərsə də ölkə hüdudlarından kənarda Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olmaqla, heç bir qeydiyyat tələb edilmədən bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malik olacaqlar.







Tədbir zamanı həmçinin media mənsubları Milli Məclisə seçkilərə hazırlıqların gedişi barədə məlumatlandırılıb və jurnalistlərin sualları cavablandırılıb.

QƏRAR № 33/155

### 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd barədə məlumatın seçki dairəsinin məntəqə seçki komissiyalarının məlumat lövhələrində yerləşdirilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəsiman Qara oğlu Yaqublu 25 avqust 2024-cü il tarixdə yol-nəqliyyat hadisəsi nəticəsində vəfat etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 99.1-99.4-cü və 166-cı maddələrinin tələbinə uyğun olaraq, seçki bülletenləri Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin müşahidəsi altında müvafiq qaydada hazırlanaraq Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş müddətdə seçki dairələrinin dairə seçki komissiyalarına çatdırılmışdır.

Seçki Məcəlləsinin 99.10-cu maddəsində göstərilir ki, seçki bülletenləri hazırlandıqdan sonra bəzi namizədlər çıxdıqda və ya onların qeydiyyatı ləğv edildikdə, Mərkəzi Seçki Komissiyasının qərarı ilə dairə və ya məntəqə seçki komissiyaları seçki bülletenlərindən belə namizədlər və ya siyasi partiyalar, siyasi partiyaların blokları barədə məlumatları, çap olunmuş seçki bülletenində qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku haqqında məlumata əlavə və ya dəyişikliklər haqqında müvafiq məlumatları məntəqə seçki komissiyasının məlumat lövhəsində yerləşdirir.

Seçicilərin məlumatlandırılması üçün 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəsiman Qara oğlu Yaqublunun vəfat etməsi barədə məlumat həmin seçki dairəsinin məntəqə seçki komissiyalarının məlumat lövhələrində yerləşdirilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənlərə və Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 99-cu və 166-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəsiman Qara oğlu Yaqublunun vəfat etməsi barədə məlumat həmin seçki dairəsinin məntəqə seçki komissiyalarının məlumat lövhələrində yerləşdirilsin.
2. Bu Qərarın icrası 125 saylı Zəngilan - Qubadlı seçki dairəsinin dairə seçki komissiyasına həvalə edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*27.08.2024*

QƏRAR № 33/156

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 avqust 2024-cü il tarixli 30 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 65 saylı Salyan - Biləsuvar - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Dadaşov Rəşad Rufiq oğlu 2024-cü il avqustun 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizəd tərəfindən seçkiqabağı təşviqat qaydalarının pozulduğunu iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4-cü hissəsinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 65 saylı Salyan - Biləsuvar - Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Dadaşov Rəşad Rufiq oğlunun 2024-cü il 26 avqust tarixli 30 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*27.08.2024*

## "Şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən vətəndaşlar parlament seçkilərində səs verə biləcəklər"



"Şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən vətəndaşlar Milli Məclisə seçkilərdə səs verə biləcəklər". Bunu "Report"a müsahibəsində Mərkəzi Seçki Komissiyasının (MSK) sədr müavini Rövzət Qasımov deyib.

O bildirib ki, əvvəllər də seçki günü şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən vətəndaşların həmin vəsiqələrdən istifadə etməklə səsvermədə iştirakının təmin olunması istiqamətində lazımi addımlar atılıb:

"Bu, bizim üçün çox önəmli məqamdır. Sentyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar da bu məsələ MSK-da müzakirə olunub. Şəxsiyyət vəsiqəsinin etibarlılıq müddətinin keçməsinə baxmayaraq, həmin seçicilərin texniki məsələ ucbatından kənarda qalmasını istəmirik. Ona görə də həmin seçicilərin etibarlılıq müddəti başa çatmış şəxsiyyət vəsiqələri ilə də səs verməsini təmin edəcəyik. Aşağı seçki komissiyalarını da bu barədə məlumatlandırmışıq".

## "Ağalıda 13 gənc ilk dəfə səsvermə hüququndan istifadə edəcək"

"Zəngilan rayonunun Ağalı kəndində yerləşən seçki məntəqəsi dairə seçki komissiyası tərəfindən bütün ləvazimatlarla təmin olunub".

Bunu "Report"un Qarabağa ezam olunan müxbirinə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 33 saylı seçki məntəqəsinin sədri Allahverdi Nəcəfov deyib.

O bildirib ki, məntəqələri Ağalı kəndində yerləşir:

"Arıtq bütün seçicilərə bildirişlər paylanılıb. Məntəqə olaraq seçkiyə tam hazırıq. Seçki məntəqəsində ilk dəfə səsvermə hüququna malik olan 13 nəfər var. Həmçinin 94 yaşında olan 2 nəfər ən yaşlı seçicimiz də mövcuddur".

## Qubadlıda yerləşən seçki məntəqəsi lazımi avandanlıqlarla təmin edilib

"İşğaldan azad edilən Qubadlının Xanlıqlar kəndində yerləşən seçki məntəqəsi bütün lazımi avandanlıqlarla təmin edilib".

Bunu "Report"un Qarabağa ezam olunmuş müxbirinə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 60 saylı seçki məntəqəsinin sədri Akif Mirzəyev deyib. O bildirib ki, məntəqə üzrə səs verən seçicilərin hamısı təsdiq olunub, bildirişlər paylanılıb: "Məntəqə üzrə 833 seçicimiz var. Onlardan biri ilk dəfə seçkilərdə iştirak hüququ qazanıb. Seçici fəallığının yüksək olacağını gözləyirik. Bu ilin fevralında keçirilən növbədənkənar prezident seçkilərində də məntəqə fəaliyyət göstərib və fəallıq yüksək olub".

Qeyd edək ki, sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək.










# Palçığın vulkan möcüzəsi

## Azərbaycan təbiətinin bu nadir incisi xarici turistləri də heyran edir

◆ **Bakı COP29-a hazırlaşır**

**Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra turizmin inkişafı da dövlət siyasətinin ayrılmaz hissəsinə çevrildi və bu, iqtisadi tərəqqi və yüksəlişin mühüm amili kimi böyük əhəmiyyət kəsb etdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra kifayət qədər investisiya tələb edən turizmin tənəzzüldən çıxarılması və inkişafı üçün kompleks tədbirlər həyata keçirildi. Ulu Öndərin möhkəm təməl üzərində əsasını qoyduğu sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sahəsində uğurlu islahatların aparılmasına da imkan yaratdı.**

### Azərbaycana gələn turistlərin sayı 34 faiz artıb

Turizmin inkişafı ilk növbədə ölkənin ali qanunvericilik aktlarında öz əksini tapmış, Milli Məclisdə "Turizm haqqında" qanun qəbul edilmiş, 27 iyul 1999-cu ildə Ulu Öndər Heydər Əliyev "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Fərman imzalamışdır. Sonrakı illərdə də bu sahəyə xüsusi diqqət ayrılmış, böyük işlər görülmüşdür.

Turizmin inkişafına göstərilən dövlət qayğısının nəticəsisdir ki, 2024-cü ilin yanvar-iyun aylarında Azərbaycana səfər edən xarici vətəndaşların sayı 1.231.104 nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 34 faiz çoxdur.

Azərbaycana səfər edən vətəndaşların sayına görə Rusiya, Türkiyə, Hindistan, İran və Gürcüstan ilk beşlikdə qərarlaşır. Beynəlxalq səviyyədə fəaliyyətə gəlincə, demək olar ki, bu istiqamətdə də böyük irəliləyiş var. Dünya İqtisadi Forumu tərəfindən dərc edilən Səyahət və Turizmin İnkişafı İndeksinə əsasən, Azərbaycan əvvəlki hesabatla müqayisədə 7 pillə irəliləyərək 119 ölkə arasında 56-cı yerdə qərarlaşıb. Böyük səy və həvəslə hazırlaşdığımız COP çərçivəsində ölkəmizə 100 min nəfərə yaxın turistin gəlişi gözlənilir.

Ölkəmizdə turizm Prezident İlham Əliyev tərəfindən müasir həyat tərzinin və mədəniyyətin mühüm atributu, beynəlxalq əlaqələrin bir forması kimi uğurla inkişaf etdirilir. Son illər sağlamlıq turizmi, dəniz turizmi, səyahət turizmi, dağ turizmi, kənd turizmi dünya səyahətçilərini daha çox maraqlandırır. Bunlara aid olan məkanlardan biri də 2021-ci il aprelin 22-də təməli Azərbaycan Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Abşeron rayonu, Qobustan kəndinin ərazisində qoyulmuş Palçıq Vulkanları Turizm Kompleksidir.

### Vulkanların 60 faizi aktivdir

Bu günlərdə böyük maraqla ünvanına yollandığımız yeni turizm kompleksi Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılıb. Bura "Qılınc" palçıq vulkanlarının ərazisi kimi tanınır. Bu kompleks "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" layihəsi çərçivəsində icra olunub.

Təbiətin maraqlı hadisəsi olan palçıq vulkanları dünyanın bir çox ölkəsində mövcuddur. Azərbaycan da palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları əsasən Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb.

Palçıq Vulkanları Turizm Kompleksində "Qılınc" palçıq vulkanını yaxından izləmək mümkündür. Bu vulkanlar bir sırada düzülmüş 8 təpədən ibarətdir. Təpələrin iri qrunt süxurları böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirir. İyirmi hektar sahəyə yayılan qrunt suxurlarının uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılır.

Prezident İlham Əliyev 2024-cü ilin 13 iyununda Abşeron rayonunda yerləşən Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib. Müasir tələblərə cavab verən bu kompleks 12 hektar ərazini əhatə edir. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib. Kompleksin Turizm İnformasiya Mərkəzi sərgi zalından və emalatxanadan ibarətdir.

Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada, həmçinin Azərbaycanın hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar da yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə ustad dərsləri təşkil ediləcək.











### Azərbaycan faunasının qədim nümunələri

İnformasiya Mərkəzində yaradılan Təbiət tarixi sərgi zalı eksponatların zənginliyi ilə böyük maraq doğurur. Sərginin "Böyük pişiklər", "Qobustan faunası", "Azərbaycanın vəhşi heyvanlarının ayaq izləri", "Azərbaycanın həşərat dünyası", "Kiçik ölçülü heyvan skeletləri" guşələrində Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, Azərbaycan təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər nümayiş etdirilir. Buradakı bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir.

Təbiət tarixi sərgisi Azərbaycanın faunasının zənginliyini, biomüxtəlifliyini nümayiş etdirir. Sərgidə Azərbaycan və dünya faunasına aid 98 heyvan skeleti, 870 müxtəlif növ qurudulmuş həşərat, xüsusi məhlulda nümayiş etdirilən 57 canlı, bir sıra sürünən və suda-quruda yaşayan heyvanlar, həmçinin paleontoloji eksponatlar sərgilənib. Uşaqların və məktəblilərin ətraf aləm haqqında maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları görüntülənir. Burada həmçinin milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

Kompleksdə yaradılmış Minerallar sərgisində isə Azərbaycan ərazisindən tapılan 80-ə yaxın fərqli mineral növü nümayiş etdirilir. Ziyarətçilər burada ölkəmizin hər yerindən - Qobustandan tutmuş Naxçıvana qədər, əksər bölgələrdən gətirilmiş gözəl və nadir qiymətli daşlar, kristallar və digər geoloji nümunələrlə yaxından tanış ola bilirlər. İki hissədən ibarət sərginin birinci bölməsində palçıq vulkanlarının püskürdüyü qaya nümunələri, digər bölmədə isə ölkəmizdəki müxtəlif faydalı qazıntı yataqlarında tapılan mineral mümunələr sərgilənib.

Burada ziyarətçilərə Yerin təki, geoloji proseslər, süxurların və mineralların əmələ gəlməsi haqqında da məlumatlar təqdim olunur. Palçıq vulkanlarının ətrafında müasir turizm infrastrukturunun yaradılması bu ərazilərdə yerləşən vulkanlar haqqında ictimai maarifləndirmənin artmasına və onların təbiət irsi kimi təbliğinə şərait yaradır.

### Turistlərin sevimli məkanı

Bu ərazidə 110 nəfərlik restoran tikilib, turistlərin vulkanları izləməsi üçün piyada yolu çəkilib, panoramalı müşahidə nöqtəsi və meydança salınıb. Müşahidə meydançasına qalxmaqla hündürlükdən ətrafdakı palçıq vulkanlarını seyr etmək, maraqlı vaxt keçirmək mümkündür.

Kompleksin ərazisində əcnəbi səyahətçilərlə yanaşı, yerli turistlər də çoxluq təşkil edirdi. Bələdçinin məlumatlarından sonra ətrafındakılara palçıq vulkanları, habelə onların iqtisadi əhəmiyyəti və müalicəvi xüsusiyyətləri barədə kitablarda, qəzet və jurnallarda oxuduqlarından, televiziya və radioda eşitdiklərindən həvəslə açıqlama verən səyahətçi ilə yaxından tanış olduq: Şəmkir rayonunun Düzqışlaq kəndinin sakini Afiq Elbəyli ali təhsilli coğrafiya müəllimidir. Maraqlı söhbətlərinə görə təşəkkür edib, "istirahətiniz necə keçir?" deyə, təəssüratını bizimlə bölüşməsini xahiş etdik.

- Həyat yoldaşım, oğlum Şahin və nəvəmlə üç gündür buradayıq. Yaradılan şərait turistlərdə məmnunluq doğurur. Havalar isti keçdiyindən günorta saatlarında gəzintidə az oluruq. Gördüyünüz kimi, sərgi zalı və emalatxanada günün bütün saatlarında turist bolluğu müşahidə edilir. İnsanlar burada palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə edirlər. Bu həm də insanlara əlavə bilgi verir. Gəlişimizdən və xidmətdən razıyıq, nəzərdə tutmuşuq ki, sağlıq olsa, gələn il yenə də bura gələk. Bütün bunlara görə, dövlətimizə və burada xidmət göstərən işçi heyətinə minnətdarıq.

Palçıq Vulkanları Turizm Kompleksinin ərazisində turistlərin rahat gediş-gəlişini təmin etmək üçün avtodayanacaq salınıb. Əyləncəli vaxt keçirmək istəyən turistlər ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan kvadrosikllərlə bu çətin relyefli ərazidə tura qoşulmaq imkanı əldə edə bilirlər. İnanırıq ki, COP29-a gələn xarici turistlər bu təbiət möcüzəsini heyranlıqla ziyarət edəcək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## COP29-un prezidenti BMT-nin Baş katibi ilə görüşüb

Azərbaycan ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayevlə BMT-nin Baş katibi Antonio Quttereş arasında Tonqada görüş baş tutub.



"Report" xəbər verir ki, bu barədə COP29-un rəsmi "X" hesabında paylaşım edilib. Tərəflər Sakit okean adalarının səslərini dünyaya çatdırmaq, həmçinin COP29-dan əvvəl daha möhkəm, davamlı gələcək qurmaq üçün çalışdıqlarını vurğulayıblar.

Qeyd edək ki, Avstraliya və Yeni Zelandiya da daxil olmaqla Okeaniyadakı 18 dövlət və ərazinin liderləri Sakit Okean Adaları Forumunun 53-cü iclası üçün Tonqa Krallığında toplaşıb. Bu forum Okeaniya ölkələri və əraziləri arasında iqtisadi və siyasi əməkdaşlıq üçün yaradılıb. Təşkilatın üzvləri Avstraliya, Kuk adaları, Fici, Vanuatu, Mikroneziya Federativ Ştatları, Fransız Polineziyası, Nauru, Yeni Kaledoniya, Yeni Zelandiya, Niue, Palau, Papua-Yeni Qvineya, Samoa, Solomon adaları, Tonqa Krallığı, Tuvalu, Kiribati, Marşal adaları, assosiativ üzv - Tokelaudur.

## Muxtar Babayev Yeni Zelandiya Baş nazirinin müavini ilə görüşüb

Azərbaycan ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev Yeni Zelandiyanın Baş nazirinin müavini Vinston Peters (Winston Peters) ilə görüşüb.



"Report" xəbər verir ki, bu barədə COP29-un rəsmi "X" hesabında paylaşım edilib.

Bildirilib ki, görüş zamanı tərəflər iqlim dəyişikliyinin təsirləri ilə üzləşən icmalarda davamlılıq yaratmaq üçün birgə səylərin gücləndirilməsi haqqında müzakirələr aparıblar.

## Tərəflər iqlim dəyişikliyi ilə mübarizədə Sakit okean boyunca adaları dəstəkləyəcəklər

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev Tonqanın Baş naziri Savaleni Siaosi ilə görüşüb.



"Report" xəbər verir ki, bu barədə COP29-un rəsmi "X" hesabında paylaşım edilib.

Bildirilib ki, tərəflər iqlim dəyişikliyi ilə mübarizədə Sakit okean boyunca adaları dəstəkləməyə davam edəcəklərini bildiriblər.




## *Baş prokuror:* "COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin tarix kitabına qızıl hərflərlə yazılacaq"

"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29 kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin tarix kitabına qızıl hərflərlə yazılacaq".




AZƏRTAC xəbər verir ki, bu sözləri ötən gün Şəki şəhərində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq mühafizə tədbirlərinin rolu" ECOLEAD layihəsi çərçivəsində "İqlim dəyişikliyinə qarşı yaşıllıqların qorunmasının akademik-elmi əsaslarının formalaşması" mövzusunda keçirilən elmi-praktiki konfransda Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev bildirib.

Onun sözlərinə görə, beynəlxalq ictimaiyyətin bu barədə yekdil qərarını verməsi dünyada Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

"Təbii ki, bu etimadın əsas səbəbkarı - bu tarixi nailiyyətin ərsəyə gəlməsi üçün yorulmadan çalışan Prezident İlham Əliyevə xalqımızın dəstəyi də misilsizdir", - deyə baş prokuror əlavə edib.

## Şəki Rayon Prokurorluğunun inzibati binasının işıqlandırılmasında alternativ enerjidən istifadə olunacaq

Şəki Rayon Prokurorluğunun istifadəyə verilən yeni inzibati binası ən müasir texnika və rəqəmsal-informasiya sistemləri ilə təchiz olunub. Belə ki, prokurorluğun bütün fəaliyyət istiqamətlərini bir vahid elektron platformada birləşdirən "Elektron Prokurorluq" İnformasiya-Kommunikasiya Sisteminin quraşdırılması təmin edilib, bunun üçün bina ən müasir avadanlıqlar, kommunikasiya sistemləri, IP-telefoniya qurğuları və digər texniki chazlarla təchiz olunub.



AZƏRTAC xəbər verir ki, bu gün Şəki şəhərində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" ECOLEAD layihəsi çərçivəsində "İqlim dəyişikliyinə qarşı yaşıllıqların qorunmasının akademik-elmi əsaslarının formalaşması" mövzusunda keçirilən elmi-praktiki konfransda Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədov deyib.

Baş prokurorun müavini bildirib ki, binada vətəndaşların məmnunluğunun təmin olunması istiqamətində, ələlxüsus da qəbul və elektron müraciətlər üçün bütün imkanlar yaradılıb. Bundan əlavə, əməkdaşların səmərəli fəaliyyəti üçün konfrans zalı, elektron kitabxana, kriminalstik avadanlıqlarla təmin olunmuş kriminalistika otağı, istintaq hərəkətlərinin aparılması üçün "vizual tanıma istintaq otağı" və digər guşələr, həmçinin idman zalı istifadəyə verilib. Binanın işıqlandırılmasının bir hissəsini alternativ enerji ilə təmin etmək üçün günəş panelləri quraşdırılıb.

"Azərbaycan Prokurorluğunun kollektivi Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən göstərilən bu yüksək qayğıya görə təşəkkürünü bildirir və bu etimada uyğun olaraq gələcəkdə də böyük məsuliyyət və peşəkarlıqla fəaliyyətini davam edərək cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bütün qüvvələrini səfərbər edəcək", - deyə Baş prokurorun müavini əlavə edib.

## *Beynəlxalq Prokurorlar Assosiasiyasının baş katibi Roel DONA:* "Qlobal iqlim dəyişikliyinə qarşı birgə mübarizə önəmlidir"

Avqustun 27-də Şəki şəhərində "Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" ECOLEAD layihəsi çərçivəsində "İqlim dəyişikliyinə qarşı yaşıllıqların qorunmasının akademik-elmi əsaslarının formalaşması" mövzusunda Elmi-Praktiki Konfrans keçirilib.



Konfransda Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev, Beynəlxalq Prokurorlar Assosiasiyasının (İAP) baş katibi Roel Dona, Şəki Rayon İcra Hakimiyyətinin başçısı Elxan Usubov, müxtəlif dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri iştirak ediblər.

Beynəlxalq Prokurorlar Assosiasiyasının (İAP) baş katibi Roel Dona Azərbaycan Prokurorluğunun ekoloji hüquqpozmalara qarşı mübarizə təcrübəsinin beynəlxalq və regional təşkilatlar, həmçinin digər ölkələrin prokurorluq qurumları tərəfindən təqdir olunduğunu qeyd edərək qlobal iqlim dəyişikliyinə qarşı birgə mübarizənin əhəmiyyətindən bəhs edib.

Daha sonra 2024-cü ilin sentyabr ayında ölkəmizin evsahibliyi ilə keçiriləcək BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağına hazırlıq işlərinin gedişatı və bir sıra təşkilati məsələlər barədə danışan Roel Dona beynəlxalq tədbirdə 400-dən çox xarici qonağın Azərbaycana səfər edəcəyini qeyd edib.

## *Vyetnamın Türkiyədəki səfiri:* "COP29 Azərbaycanın beynəlxalq səhnədəki önəmli rolunu əks etdirir"

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın beynəlxalq səhnədəki önəmli rolunu əks etdirir.



Bu fikirləri "Report"un Ankara bürosuna Vyetnam Sosialist Respublikasının Türkiyədəki səfiri Do Son Hai bildirib. Səfir deyib ki, hazırda bütün dünyanın diqqətinin üzərində olduğu bu beynəlxalq tədbirdə iştirak üçün ölkəsinin rəhbərliyi də dəvət alıb: "Biz COP29-a dəvət olunmuşuq. Düşünürəm ki, ölkəmiz bütün dünya üçün ekoloji əhəmiyyəti olan bu tədbirdə yüksək səviyyədə təmsil olunacaq".

Azərbaycanın ən mühüm beynəlxalq tədbirlərə uğurla evsahibliyi etdiyini vurğulayan səfirin fikrincə, rəsmi Bakı COP29-un da öhdəsindən layiqincə gələcək.

## *Misirli nazir:* "Azərbaycanın dünyada sülhə və anlaşmaya nail olunmasına xidmət edən təşəbbüsləri İslam aləmində yüksək dəyərləndirilir"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Misir Ərəb Respublikasının Dini işlər və vəqflər naziri Usama Əl-Əzhəri ilə görüşüb.



Komitədən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı R.Məmmədov iki ölkə arasında dostluq münasibətlərinə diqqət çəkərək, Azərbaycan və Misir prezidentlərinin siyasətinin bütün sahələrdə əməkdaşlığın ən yüksək səviyyədə qurulması üçün etibarlı zəmin yaratdığını bildirib. Ölkəmizdəki dövlət-din münasibətləri, multikultural mühit haqqında danışan komitə sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər, milli-mənəvi dəyərlərin qorunması, dini etiqad azadlığının təmin olunması istiqamətində görülən işlər barədə məlumat verib. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın təşəbbüslərinin mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə böyük töhfələr verdiyini vurğulayıb. Müvafiq qurumların, habelə komitənin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu ilə Misirin dini təhsil ocaqları arasında əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qeyd edib.

Nazir Usama Əl-Əzhəri Azərbaycanın mənəvi birliyə, birgəyaşayışa, dünyada sülh və anlaşmaya nail olunmasına xidmət edən təşəbbüslərinin İslam aləmində yüksək dəyərləndirildiyini bildirib. Qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivlərinə toxunan nazir ölkəmizin müvafiq sahədə fəaliyyət göstərən qurumları arasında əlaqələrin daha da güclənməsi üçün yaxşı imkanların mövcud olduğunu deyib.

Dövlət Komitəsi sədri Ramin Məmmədovun Ümumdünya Fətva Evlərinin Baş katibi İbrahim Nəcm ilə görüşündə bütün sahələrdə olduğu kimi, dini-mənəvi sahədə də iki ölkə arasında əməkdaşlığın uğurla davam etdirildiyi vurğulanıb. Beynəlxalq tədbirlərdə fəal tərəfdaşlığın bu əməkdaşlığı daha da gücləndirdiyi qeyd olunub. Azərbaycanın dinlərarası dialoqa, islam həmrəyliyinə, eyni zamanda islamofobiya ilə mübarizəyə mühüm töhfələr verdiyi bildirilib. Ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində dünya dini liderlərinin Zirvə görüşünün keçirilməsinin, qloballaşan dünyanın müasir çağırışlarının nüfuzlu din xadimlərinin iştirakı ilə birgə müzakirəsinin xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

## Pakistanda COP29-la bağlı seminar təşkil olunub

Pakistanın paytaxtı İslamabadın Regionşünaslıq İnstitutunda "Transsərhəd dayanıqlılığının gücləndirilməsi və regional əməkdaşlığın genişləndirilməsi" adlı seminar təşkil olunub.



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov, bu ölkənin iqlim dəyişikliyi üzrə sabiq naziri, xanım senator Şerri Rəhman, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNDP) Pakistandakı nümayəndəsi Samuel Rizk və digərləri tədbirdə çıxış ediblər.

Səfir Xəzər Fərhadov çıxışında COP-29-un təşkilində qlobal həmrəyliyin vacibliyini vurğulayaraq qeyd edib ki, bu, ilin ən mühüm beynəlxalq tədbiri olacaq.

Senator Şerri Rəhman bildirib ki, əgər iqlim dəyişikliyinin mənfi təsirlərini aradan qaldırmaq üçün dərhal hərəkətə keçilməsə, biz "çatışmazlıq və qıtlıq dünyası"nda yaşayacağıq.

Samuel Rizk isə çıxışında su qıtlığı probleminə toxunaraq onu qlobal çağırış kimi xarakterizə edib. Təkmilləşdirilmiş Qidalanmaya dair Qlobal Alyansın Pakistan üzrə direktoru xanım Fərəh Naz Cənubi Asiyanın üzləşdiyi kənd təsərrüfatı problemlərindən danışıb. O vurğulayıb ki, iqlim dəyişikliyi əsrin sonuna qədər regionda məhsul istehsalını 10-40 faiz aralığında azaldacaq. Bu isə ərzaq təhlükəsizliyinə ciddi zərbə vuracaq.

İslamabad Regionşünaslıq İnstitutunun prezidenti Cövhər Səlim isə qlobal təhlükə, xüsusilə iqlim dəyişikliyi ilə mübarizədə birgə əməkdaşlığın zəruriliyini vurğulayıb.

## Azərbaycanda bərpaolunan enerji üzrə göstəricilər açıqlandı

Media Təhlil Mərkəzinin ( MTM) Dövlət Statistika Komitəsinin, Energetika Nazirliyinin və Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin rəsmi internet səhifələrindən əldə etdiyi məlumatların təhlili göstərir ki, Prezident İlham Əliyevin 2004-cü il 21 oktyabr tarixində "Azərbaycan Respublikasında bərpa olunan enerji üzrə Milli Proqram"ı ilə bağlı imzaladığı sərəncamdan bu günə qədər ölkəmizdə bərpaolunan enerji üzrə qoyuluş gücü 74 faiz və ya 717,8 MVt artıb.



Trend xəbər verir ki, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin 2009-cu il yanvarın 26-da Bonn şəhərində imzalanmış Nizamnaməsinin Dövlət başçısı İlham Əliyev tərəfindən 2014-cü ilin 2 may tarixində təsdiq edilməsindən cari tarixədək Azərbaycanda bərpa olunan enerji üzrə qoyuluş gücü 50,7 faiz və ya 567,9 MVt artıb.

Cari ilin iyul ayına aid göstəricilərə görə isə ölkəmizdə bərpa olunan enerji mənbələri üzrə qoyuluş gücü 1 687,9 MVt təşkil edib. Bu isə 5 il öncəki göstərici ilə müqayisədə 30,7 faiz və ya 396,6 MVt çox deməkdir.

Ölkəmizdə bərpaolunan enerji üzrə elektrik stansiyalarının gücünə diqqət etsək, əsas enerji növünün su olduğunu görərik. Son 20 ildə Azərbaycanda su-elektrik stansiyalarının qoyuluş gücü 34,2 faiz və ya 331,6 MVt artıb. Hazırda isə su elektrik stansiyalarının qoyuluş gücü 1301,7 MVt təşkil edir. Bu da son 5 ildə 13,7 faiz artım deməkdir.

Son rəqəmlərə görə, Azərbaycanda külək-elektrik stansiyalarının gücü 66,5 MVt təşkil edir və bu, 15 il əvvəlki göstəricidən 39,1 dəfə və ya 64,8 MVt çoxdur. Onu da qeyd edək ki, ölkəmizdə külək-elektrik stansiyaları ilk dəfə 2009-cü ildə fəaliyyətə başlayıb və həmin dövrdə qoyuluş gücü 1,7 MVt olub.

Günəş-elektrik stansiyalarının qoyuluş gücü 282 MVt təşkil edir. Bu, 5 il öncə ilə müqayisədə 8 dəfə, 10 il öncə ilə müqayisədə 117,5 dəfə artım deməkdir. Günəş-elektrik stansiyalarının qoyuluş gücünün 81,6 faizni və ya 230 MVt-nı 2023-cü ildə açılışı baş tutmuş "Qaradağ GES" təşkil edir.

Xatırladaq ki, "Qaradağ GES" 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. "Qaradağ GES" ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır. Ölkədə yeganə olan Balaxanı bioelektrik stansiyasının gücü isə 37,7 MVt təşkil edir.

Elektrik stansiyalarını sayına görə müqayisə etsək, 11-i iri və 36-sı kiçik olmaqla ümumilikdə 47 stansiya ilə su-elektrik stansiyaların ilk pillədə yer aldığını görərik.

22 stansiya ilə istilik-elektrik stansiyaları ikinci sırada olmaqla yanaşı, bütün elektrik stansiyalarının 25,6 faizni təşkil edir. Daha dəqiq desək, ölkədə fəaliyyət göstərən elektrik stansiyalarının 74,4 faizni (64 stansiya) bərpaolunan enerji hasil edən elektrik stansiyaları tutur.

Əlavə məlumat üçün bildirək ki, ölkəmizdə 9 günəş, 5 külək və 1 bioelektrik stansiyası elektrik enerjisi hasil edir. Bundan başqa Azərbaycanda 2 hibrid-elektrik stansiyası da var ki, külək, günəş və bioqazdan istehsal olunan elektrik enerjisi hibrid formada elektrik şəbəkəsinə ötürülür.

Son 20 ildə Azərbaycanda elektrik enerjisinin istehsal formasının dəyişiminə baxsaq, bu illər ərzində günəş, külək və bioelektrik stansiyalarının yaradıldığını və su-elektrik stansiyalarının sayının artdığını görərik.

Qeyd edək ki, 2004-cü ildə Azərbaycanda elektrik enerjisi hasil edən elektrik stansiyalarının yalnız 2 növü (İstilik ES və Su ES) mövcud olub. Həmin dövrdə elektrik stansiyalarının qoyuluş gücü 5665,1 MVt təşkil edib ki, onun da 82,88 faizi (4695 MVt) istilik elektrik stansiyalarının, 17,12 faizi (970,1) isə su-elektrik stansiyalarının payına düşüb.

2024-cü ildə isə elektrik stansiyalarının qoyuluş gücü 8320,9 MVt təşkil edir və onun 79,72 faizi (6633) istilik-elektrik stansiyalarının, digər 20,28 faizi (15,64 faizi Su ES, 3,39 faizi Günəş ES, 0,8 faizi Külək ES, 0,45 faizi isə Bio ES) bərpa olunan enerji üzrə fəaliyyət göstərən elektrik stansiyalarının payına düşür.

## *Ekspert:* "Elektrik enerjisinin israfı bu sahədə səmərəliliyi də azaldır"

Elektrik enerjisinin qənaəti çox vacib məsələdir. Belə ki, dünyanın bir çox ölkələrində elektrik enerjisinin istehsalında yanacaq kimi ənənəvi enerji növlərindən istifadə olunur. Bu hal atmosferə buraxılan karbondioksidin həcmini artıraraq hava çirklənməsinə yol açır. Belə ki, 1 litr benzinin yanmasından havaya 1.6 m3 karbondioksid buraxılır. Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, hər il dünyada təqribən 9 milyon insan hava çirklənməsinin səbəb olduğu ürək çatışmazlığından ölür. Digər tərəfdən də elektrik enerjisinin israfı bu sahədə səmərəliliyi də azaldır. Ona görə də, elektrik enerjisindən maksimum qənaətlə istifadə etmək lazımdır. Bunu AZƏRTAC-a açıqlamasında iqtisadçı-ekspert Samir Heydərov bildirib.

O qeyd edib ki, ölkəmizin bərpaolunan enerji mənbələri baxımından çox böyük potensialı var. Belə ki, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135QVt, dənizdə 157 Qvt-dır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 Qvt, o cümlədən külək enerjisi üzrə 3000 Mvt, günəş enerjisi üzrə 23000 Mvt, bioenerji potensialı 380 Mvt, dağ çaylarının potensialı üzrə 520 Mvt həcmində qiymətləndirilir.

Ekspert əlavə edib ki, son 5 ildə Azərbaycanda bərpaolunan enerji mənbələrinin ümumi istehsal gücü 31 faiz artaraq 1700 Mvt-a yaxınlaşıb.

"Ölkəmizdə 2023-cü ildə 29276.6 min kv/s elektrik enerjisi istehsal olunub. Onun 7 faizi bərpaolunan mənbələr hesabına istehsal edilib. Qeyd olunan dövrdə külək-elektrik stansiyalarında 56.6 milyon kilovat saat, günəş-elektrik stansiyalarında 79.4 milyon kilovatsaat, bərk məişət tullantılarının emalı zavodunda isə 223 milyon kilovatsaat elektrik enerjisi istehsal edilib", - deyə S.Heydərov bildirib. Qeyd edib ki, ölkəmizdə bərpaolunan enerji istehsalına çox böyük əhəmiyyət verilir. Belə ki, Abşeron regionunda 240 MVT-lıq günəş və 240 MVT-lıq külək enerjisi stansiyalarının quraşdırılması ekoloji təmiz, həmçinin qənaətcil enerji hesabına elektrik enerjisinin ixrac potensialını artırmaqla yanaşı, elektrik stansiyalarında istifadə olunan 5.6 milyard kubmetr qazın bir hissəsinin qənaət edilərək, ixraca yönəldilməsinə imkan verib.

Onun sözlərinə görə, elektrik stansiyalarında karbohidrogen yanacağından az istifadə edilməsi hesabına milyon tonlarla karbondioksidin qarşısı alınır və bu, ölkədə ekoloji sağlamlaşma prosesinə təkan verir. "Bu, həm də beynəlxalq konvensiyalara uyğun tullantı kvotasının və eyni zamanda COP29-un ev sahibi olan rəsmi Bakının ekoloji kvotanın icrasını həyata keçirməsinə bariz nümunədir", - deyə ekspert bildirib.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Strateji tərəfdaşlıq güclənir, qlobal nüfuz artır

### Azərbaycanın müttəfiqlərinin coğrafiyası genişlənir

Bu gün dünyanın geosiyasi mənzərəsi heç də ürəkaçan deyil. Müxtəlif coğrafiyalarda qaynar ocaqların, müharibələrin mövcudluğu, həmçinin yeni təhdidlərin artması bəşəriyyəti ciddi sınaqlar qarşısında qoyur.

Yaxın Şərqdə yaşanan münaqişə, Rusiya-Ukrayna müharibəsi, məcburi assimilyasiyaya aparan iyrənc neokolonializm təcrübəsinin davam etməsi dünyada vəziyyətin heç də ürəkaçan olmadığını göstərir.

Şükürlər olsun ki, bu arzuolunmaz geosiyasi arxitektura fonunda Azərbaycanda siyasi sabitlik hökm sürür. Regionun lider dövləti kimi Azərbaycan daxili sabitliyini əzmlə qoruyub saxlayır. Təbii ki, bu sabitliyin qorunmasını şərtləndirən ən mühüm məsələ dövlətin liderinin yürütdüyü uğurlu siyasətdir.

Həyata keçirdiyi tam müstəqil siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev hadisələri düzgün analizetmə, dorğu qərarvermə bacarığı, uğurlu diplomatiyası ilə Azərbaycanı həm də dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Bunun yeganə səbəbi İlham Əliyevin sözünə sadiq lider olduğunu dəfələrlə təsdiqləməsidir.

Çoxvektorlu və ya balanslaşdırılmış xarici siyasət strategiyası Azərbaycanın markasına çevrilib desək, yanılmarıq. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş və hər kəslə öz milli maraqlarına əsaslanan münasibət qurmağa yönəlmiş çoxtərəfli xarici siyasət kursu Azərbaycanı dünyada söz sahiblərindən birinə çevirib.

Təkcə son iki ayda Azərbaycanın xarici siyasətinin uğurlarına nəzər yetirsək aydın şəkildə görə bilərik ki, ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Həmçinin Azərbaycan da bir çox böyük dövlətlərlə srtateji tərəfdaşlığını gücləndirməkdə maraqlıdır.

İlk olaraq Azərbaycanın BRICS-ə (BRİKS) daxil olmaq üçün rəsmi müraciətinə diqqət edək. İyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayıb.

BRICS 2006-cı ildə yaradılıb, Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirliklərini özündə birləşdirən hökumətlərarası təşkilatdır. Əvvəlcə investisiya imkanlarını müəyyən edən qruplaşma hökumətləri 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri koordinasiya edən vahid geosiyasi bloka çevrilib.




Ankaranın Hacı Bayram Vəli Universitetinin dosenti Levent Ersin Orallı hesab edir ki, Azərbaycanın BRICS-in Qərblə əlaqələrində əsas oyunçuya çevrilmək üçün bütün imkanları var və bu baxımdan Bakının rolu yalnız artacaq. Onun fikrincə, Azərbaycan BRICS-ə müraciət edərkən respublikanın gələcək inkişafının iqtisadi modelinin bu təşkilatın vektorunu nəzərə alacağını açıq şəkildə bildirib: "BRICS nöqteyi-nəzərindən "sabitlik" sözünün ən çox aid olduğu iki ölkə var. Bu, Çin və Azərbaycandır. Əgər BRICS ölkələri Qərb dövlətləri ilə münasibətlərdə sıçrayışa nail olmağı hədəfləyirsə, bunun üçün ən düzgün platforma güclü iqtisadiyyata və dünyanın bir çox dövlətləri ilə yüksək səviyyədə münasibətlərə malik olan Azərbaycandır".

Açığını desək, Azərbaycan ilə Çin arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığın kifayət qədər böyük potensialı var. Rəsmi Bakı Pekini təkcə dost ölkə deyil, həm də texnoloji tərəqqinin mənbəyi kimi qəbul edir. Eyni zamanda ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün daha geniş imkanlar mövcuddur. Azərbaycan Çinə özünün milli prioritetlərindən biri olan rəqəmsal və "yaşıl keçid"də tərəfdaş kimi baxır. Bundan əlavə, hər iki ölkə birgə bərpaolunan enerji mənbələri və elektrik avtomobilləri üçün avadanlıq istehsal edə bilər. Bu amilləri nəzərə alan Prezident İlham Əliyev Çin ilə əməkdaşlığı Azərbaycanın prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Bundan başqa Azərbaycan Prezidentinin Özbəkistana və Qazaxıstana səfərləri, keçirdiyi görüşlər, imzalanan sənədlər, həmçinin Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə ilk dövlət səfəri göstərir ki, Azərbaycanın strateji tərəfdaşlıq etdiyi ölkələrin sayı artır, müttəfiqlərinin coğrafiyası genişlənir.

Türkiyə mediasının təmsilçisi, siyasi ekspert Güngör Yavuzaslan deyir ki, bu gün bölgənin strategiyasını və gələcəyini Prezident İlham Əliyevin yaratdığı yeni Azərbaycan doktrinası müəyyənləşdirir. Bu doktrina Rusiya Prezidenti Vladimir Putini ölkəsində qəbul etmək, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə strategiyalar ortaya qoymaq, Türk Dövlətləri Təşkilatı daxilində yeni mövqe nümayiş etdirərək Şimali Kipr Türk Cümhuriyyətinin bayrağını Bakıda dalğalandırmaqdır. Yəni bölgənin hazırkı strategiyası Prezident İlham Əliyevin baxışına doğru istiqamətlənir. Bütün bunlar yeni dövrün şifrələridir. Qərbin Ermənistan sevdası Rusiya-Ukrayna müharibəsindən sonra bölgədə yeni həssas nöqtə yaratmaqdır. Buna görə də bəzi Qərb dairələri bu istiqamətdə addımlarını davam etdirəcəklər. Bu, Ermənistanın silahlandırılması, yaxud müxtəlif diplomatik yollardan istifadə edərək mövzuya qarışması ilə də bağlı ola bilər. Lakin əsas məqam odur ki, qondarma "Dağlıq Qarabağ Respublikası" artıq çoxdan tarixin arxivinə atılıb. Bundan sonrakı strategiya və təhlükəsizliyi isə yeni doktrina müəyyən edəcək ki, onun da adı Azərbaycandır.

Yəni bölgədə marağı olan istənilən dövlət Azərbaycanla hesablaşmalıdır. Artıq Azərbaycan tək deyil, strateji tərəfdaşları, müttəfiqlərinin sayı gündən-günə çoxalır və bütün bunlar ölkəmizin gücünə güc qatır, qlobal nüfuzunu daha da yüksəldir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Müstəqil siyasət, etibarlı tərəfdaş, ləyaqətli ölkə

### Uğurlu xarici siyasət ölkəmizin qlobal imicini möhkəmləndirir

"Azərbaycan beynəlxalq münasibətlər sistemində güclü və nüfuzlu dövlət kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. O bildirib ki, ölkəmiz xarici siyasi əlaqələrini, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi özünü təqdim edib.

Müasir dövrdə dünya siyasətində çox ciddi geostrateji dəyişikliklər baş verdiyini qeyd edən deputat söyləyib ki, məhz bu dəyişikliklərin və digər proseslərin fonunda beynəlxalq münasibətlər sisteminin yeni çağırışları meydana gəlir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən müstəqil siyasətin önəmindən asılıdır: "Səmərəli və praqmatik müstəqil siyasət milli maraqları təmin etməklə yanaşı, ölkələrin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir. Belə bir situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə malik olan dövlətlər sabitliyə və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirə bilirlər. Bu kontekstdə Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir".

S.Fətəliyeva vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə isə milli gücünün artmasını təmin edib. Bununla yanaşı, tarazlaşdırılmış və milli maraqlara əsaslanan siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənib. Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrini uğurla davam etdirir. "Bu gün Azərbaycanla əməkdaşlıq geosiyasi və geoiqtisadi perspektivlər nöqteyi-nəzərindən əhəmiyyətli dividendlər vəd edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan regionumuzda heç bir layihə gerçəkləşdirilə bilməz. Hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə milli dövlətlərin, o cümlədən güc mərkəzlərinin uzunmüddətli perspektiv üçün əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə can atdığı tərəfdaş ölkələrdəndir. Müəyyən beynəlxalq güclər keçmiş "Dağlıq Qarabağ" münaqişəsinin dondurulmuş vəziyyətdə saxlanılmasına çalışsa da, Prezident İlham Əliyev qətiyyətli mövqe nümayiş etdirdi, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu. Təbii ki, qazanılan bu zəfər dövlətimizin milli maraqlarına əsaslanan siyasətinin ən parlaq nümunələrindəndir. Bu zəfərdən sonra Azərbaycanın nəinki regionda, o cümlədən beynəlxalq müstəvidə də mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Müharibədən sonra dövlətimiz bölgədə yeni reallıqlar yaradıb və dünya bunu qəbul edir. Hətta müəyyən beynəlxalq dairələr, bəzi dövlətlər regiondakı prosesləri öz maraqlarına uyğun yönləndirməyə çalışsalar da, buna nail ola bilmədilər. Bu da dövlətimizin prinsipial, milli maraqlara əsaslanan siyasətinin ifadəsidir", - deyə o əlavə edib.

Deputat bildirib ki, bütövlükdə, Prezident İlham Əliyevin milli maraqlarımıza uyğun siyasət həyata keçirməsi dövlətimizin uğurlarını davamlı olaraq artırır. Təsadüfi deyil ki, son zamanlar ölkəmizlə əlaqələrini gücləndirmək istəyən dövlətlərin sayı əhəmiyyətlli dərəcədə artıb. Xüsusilə, Avropa İttifaqı özünün enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanı vacib tərəfdaş hesab edir. Yeri gəlmişkən, Azərbaycan Avropa İttifaqının 9 ölkəsi ilə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb. Eləcə də, dünyanın ən mötəbər tədbirlərindən olan COP29-un ölkəmizdə keçirilməsi Azərbaycana beynəlxalq müstəvidə olan inam və etibarın mühüm göstəricisidir. Bütövlükdə, Prezident İlham Əliyevin uğurlu siyasəti ölkəmizin dünyada etibarlı tərəfdaş kimi imicini daha da möhkəmləndirməkdədir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Mənəvi aspekt Azərbaycanın BRICS-ə inteqrasiyasının ən mühüm amillərindən biridir

"ABŞ-nin daxili işlərinə qarışmaq və xarici siyasətinə təsir etmək üzrə müntəzəm cəhdləri ilə üzləşən Azərbaycan, Cənubi Amerika, Afrika və Asiya ölkələri BRICS-də öz suverenliklərini müdafiə etmək və möhkəmləndirmək imkanı tapır".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında rusiyalı politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis və təhlükəsizlik üzrə ekspert Yevgeni Mixaylov Azərbaycanın BRICS-ə üzv olmaqla bağlı rəsmi müraciətini şərh edərkən deyib.

"Həm Azərbaycanın, həm də digər yeni iştirakçıların təşkilata inteqrasiyasında ən mühüm amillərdən biri mənəvi aspektdir. Bu gün bəşəriyyətin böyük bir hissəsi bütün əxlaq normalarını, xalqların adət-ənənələrini və minillik dəyərləri inkar edən Avropa İttifaqından "yeni" əxlaqın azsaylı, lakin son dərəcə fəal tərəfdarlarının diktəsinə müqavimət göstərir", -deyə agentliyin həmsöhbəti hesab edir.

Politoloqun sözlərinə görə, artıq on ildir ki, bütün qlobal iqtisadi sistem G7 ölkələrinin - Vaşinqton, London, Berlin və ya Parisin Moskva, Pekin və Qlobal Cənubun hər hansı bir ölkəsinin bərabərhüquqlu, hətta kiçik tərəfdaşı rolunda çıxış etməsi reallığını qəbul edə bilməməsi səbəbindən sarsılır. Aydındır ki, Qərbin Rusiya Federasiyasına qarşı sanksiya siyasəti əks effekt verir və BRICS assosiasiyasının inkişafı üçün ilkin şərtlər yaradır.



Mixaylov əlavə edib: "2024-cü ildə, müasir dövrdə planeti misli görünməmiş dünya müharibəsi təhlükəsi bürüyəndə, BRICS-ə getdikcə daha çox yeni iştirakçı qoşulur. Azərbaycan və Malayziyanın müraciəti bunun daha bir təsdiqidir".

BRICS-in mütəmadi olaraq ölkələr arasında müxtəlif səviyyələrdə əməkdaşlığın inkişafına yönəlmiş böyük tədbirlər keçirdiyini xatırladan Mixaylov əlavə edib ki, bu günlərdə, avqustun 27-28-də Moskvada BRICS ölkələrinin Beynəlxalq Bələdiyyə Forumu keçirilir. Burada 126 ölkədən 5 mindən çox nümayəndə, xüsusən də Bakıdan müşahidəçilər iştirak edirlər. "Şübhəsiz ki, bu cür tədbirlər şəhərlərin mütərəqqi inkişafına və iştirakçı ölkələrin qardaş şəhərləri arasında əlaqələrin qurulmasına zəmin yaradır", - deyə rusiyalı politoloq bildirib.

## Azərbaycan Cənubi Qafqazda təhlükəsizliklə bağlı məsələlərin həlli istiqamətində müstəqil siyasət yürüdür

Azərbaycan regionda kifayət qədər nüfuza və sözə sahibdir. Bu ölkə Cənubi Qafqazda təhlükəsizliklə bağlı məsələlərin həlli istiqamətində ATƏT-in, Avropanın köməyinə ehtiyac duymur və bu məsələdə müstəqil siyasət yürütməkdə davam edir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Özbəkistan və Azərbaycan: qarşılıqlı faydalı əməkdaşlığın yeni perspektivləri" mövzusunda avqustun 27-də Bakıda keçirilən tədbirə onlayn qoşulan Özbəkistanın Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin direktoru Sancar Valiyev səsləndirib.

Ölkələrimiz arasında əlaqələrin tarixi kökündən, ortaq dəyərlərdən danışan S.Valiyev strateji tərəfdaşlıq əlaqələrinin müttəfiqlik səviyyəsinə çatmasından məmnunluğunu ifadə edib. Beyin mərkəzinin rəhbəri Özbəkistanın və Azərbaycanın müxtəlif beynəlxalq platformalarda, o cümlədən Türk Dövlətləri Təşkilatı (TDT), Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində sıx əməkdaşlıq etdiklərini qeyd edib.

Vurğulayıb ki, iki ölkə arasında imzalanan yeni sənədlər əlaqələrimizi, əməkdaşlığımızı daha yüksək səviyyəyə çatdıracaq.

## *Səfir:* "Özbəkistan ilə Azərbaycan ümumi maraq və dəyərlər ətrafında sıx birləşib"

"Özbəkistan və Azərbaycan prezidentləri tərəfindən iki ölkə arasında müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi haqqında imzalanan sənəd çox mühüm əhəmiyyətə malikdir. Hər iki ölkə ümumi maraq və dəyərlər ətrafında sıx birləşərək, münasibətlərin daha da inkişafı yolunda addımlayır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Özbəkistan və Azərbaycan: qarşılıqlı faydalı əməkdaşlığın yeni perspektivləri" mövzusunda avqustun 27-də keçirilən tədbirə onlayn qoşulan Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Baxrom Aşrafxanov səsləndirib.

Onun sözlərinə görə, hazırda hər iki ölkənin 11 şəhəri arasında qardaşlaşma haqqında sənəd imzalanıb. Ölkələrimizi birləşdirən daha bir dəyər milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində siyasət yürüdülməsidir. Özbəkistan və Azərbaycan əsasən maşınqayırma, əczaçılıq və digər sahələrdə uğurla əməkdaşlıq edir.

Orta dəhlizin əhəmiyyətini qeyd edən səfir çoxtərəfli münasibətlərin inkişafı barədə fikirlərini bölüşüb: "Son illərdə əməkdaşlığın inkişafı üzrə iyirmi sahə müəyyənləşdirilib. Onların arasında, səhiyyə, əczaçılıq, ipəkçilik, texnoloji avadanlıqların istehsalı və digərlərini qeyd etmək olar. Eyni zamanda tərəflər arasında Xankəndidə birgə müəssisənin yaradılması da qərarlaşdırılıb. Özbəkistan və Azərbaycan nəqliyyat dəhlizlərinin strukturu baxımından oxşar cəhətlərə malikdir".

## *Mərkəzi Asiya Beynəlxalq İnstitutunun direktor müavini:* "Azərbaycan Cənubi Qafqazda lider dövlətdir"

"Azərbaycan Cənubi Qafqaz regionunda nəqliyyat, enerji və bir çox digər layihələrin inkişafını təmin edir".

Bunu Mərkəzi Asiya Beynəlxalq İnstitutunun direktor müavini Şerzod Fayziyev Bakıda keçirilən "Azərbaycan və Özbəkistan: qarşılıqlı faydalı əməkdaşlığın yeni perspektivləri" adlı tədbirdə deyib.



"Azərbaycan Cənubi Qafqazda lider dövlətdir. Şübhəsiz ki, iki ölkənin (Azərbaycan və Özbəkistanın) yaxınlaşması həm Mərkəzi Asiya regionu, həm də Qafqaz üçün faydalı olacaq", - o bildirib. Ş.Fayziyev Azərbaycanın son illər bütün Mərkəzi Asiya dövlətləri, o cümlədən Əfqanıstan və bu regiona qonşu olan digər ölkələrlə əlaqələri inkişaf etdirdiyini məmnunluqla vurğulayıb.

"30 illik əməkdaşlığımız ərzində ticarət səviyyəsi, investisiyaların həcmi və bir çox digər sahələrdə nəzərəçarpacaq artım olub", - o əlavə edib.

Qeyd edək ki, "Azərbaycan və Özbəkistan: qarşılıqlı faydalı əməkdaşlığın yeni perspektivləri" adlı tədbir Azərbaycan Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə keçirilib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa demokratiya yox, repressiyalar ölkəsidir

Teleqram mesajlaşma proqramının təsisçisi və baş direktoru Pavel Durovun Parisdə həbs edilməsi bir daha Fransanın repressiv simasını nümayiş etdirdi. Bu hadisə Fransa dövlətinin, rəsmi Parisin demokratik dəyərlərə, insan hüquqlarına və söz azadlığına növbəti zərbəsi oldu.




Hazırda bu hadisə elə Qərbin özündə tanınmış insanlar tərəfindən ciddi şəkildə qınanır. Məsələn, "X" sosial platformasının, "Tesla" və "SpaceX" kimi şirkətlərin sahibi, tanınmış milyarder İlon Mask özünün sosial şəbəkə hesabında bu barədə paylaşım edərək Fransanı Pavel Durovu azad etməyə çağırıb.

İş o yerə çatıb ki, Fransa prezidenti Emmanuel Makron məsələ ilə bağlı açıqlama vermək məcburiyyətində qalıb. "X" sosial şəbəkəsindəki paylaşımında o, teleqram rəhbərinin saxlanılmasının hüquqi araşdırma çərçivəsində baş tutduğunu bildirib və bunun siyasi qərar olmadığını vurğulayıb.

Fransa prezidenti dünyada qeyri-ciddi siyasi fiqur kimi tanındığından onun açıqlaması da ciddi qəbul olunmur və Pavel Durovun həbsinin sifarişli olması heç də şübhə doğurmur. Rusiya Dövlət Dumasının Sədri Vyaçeslav Volodin də həbsin siyasi motivli olması qənaətindədir. Onun fikrincə, həbsin arxasında ABŞ dayanır. "Əslində, Durovun həbsinin arxasında Vaşinqton dayanır. Teleqram ABŞ-nin heç bir təsiri olmayan azsaylı və eyni zamanda ən böyük internet platformalarından biridir. Eyni zamanda onları maraqlandıran bir çox ölkələrdə fəaliyyət göstərir. ABŞ-də prezident seçkiləri ərəfəsində Baydenin teleqrama nəzarəti ələ almasını vacib bilirlər", - deyə Vyaçeslav Volodin özünün teleqram kanalında yazıb.

Vyaçeslav Volodin onu da əlavə edib ki, sosial şəbəkələrdə izləmə və senzura Vaşinqtonun idarəetmə və təsir üçün ənənəvi vasitələridir. Maraqlıdır ki, Qərbin insan hüquqlarının müdafiəsi adı altında fəaliyyət göstərən təşkilatları indiyə qədər bu hadisəyə münasibət bildirməyiblər. Demokratiyanı özünün əsas prinsiplərindən biri kimi qəbul edən Avropa İttifaqı sıralarında təmsil olunan Fransanın insan hüquqlarını kobud şəkildə pozmasını sükutla qarşılayır. O cümlədən ABŞ siyasi dairələri susurlar. Amma Azərbaycanda bu hadisə ilə müqayisədə qat-qat kiçik bir hal baş versəydi, Qərb siyasi mərkəzləri və təşkilatları respublikamıza qarşı dayanmadan bir ağızdan səs-küy salardılar.

Bu hadisə bir daha təsdiq etdi ki, Fransada və Fransanın timsalında Qərbdə hansısa maraqlar naminə insan hüquqlarının, söz azadlığının kobud şəkildə pozulması adi haldır. Və bir daha sübut olundu ki, Fransa siyasi maraqlar naminə demokratiyanı boğan, insan hüquqlarına, azad sözə qarşı repressiv metodlardan istifadə edən dövlətdir. Bu baxımdan P.Durovun həbsinin başqa bir izahı mümkün deyil.

Fransanın repressiv idarəetməsini həm də Yeni Kaledoniyada, Maohi Nuidə (Fransız Polineziyası), Korsikada və fransız müstəmləkəçiliyindən əziyyət çəkən digər yerlərdə baş verənlər təsdiq edir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Qərbdə söz azadlığı, sadəcə, ritorikada mövcuddur

### Pavel Durovun həbsi göstərdi ki, azad mətbuat ən çox Avropada təzyiqlərə məruz qalır

"Pavel Durovun Fransada həbs edilməsi bir çox təsəvvürləri möhkəmləndirdi. Birincisi odur ki, Qərbdə söz, media azadlığı, sadəcə olaraq, ritorikada mövcuddur, reallıqda isə çox ciddi senzura altındadır".

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Qərb öz cəmiyyətlərini, eləcə də başqa xalqları informasiya manipulsiyasında saxlamağı fəaliyyətinin əsas istiqaməti kimi müəyyənləşdirib. Sadəcə olaraq, bu manipulyasiyanı "uğurla" həyata keçirərək, fərqli obrazlarını formalaşdırmağa çalışıblar ki, orada guya söz azadlığı mövcuddur. Prosesləri az-çox dərk edən insanlar bilirlər ki, söz, mətbuat azadlığı ən çox Qərbdə təzyiqlərə məruz qalır. "Fransa prezidenti Makron Pavel Durovun həbsi ilə bağlı mövqeyini bildirərək deyib ki, hər şey qanun çərçivəsindədir, bu məsələni siyasiləşdirmək olmaz. Həmişə şahidi olmuşuq ki, Makron hakimiyyətindən siyasi məqsədləri üçün istifadə edib. Məsələn, Avropa Parlamentinə seçkilərdən sonra o, ölkədə növbədənkənar parlament seçkiləri təyin etdi, bununla itirmiş olduğu mövqelərini hər hansı formada sığortalamaq üçün digər siyasi qüvvələrlə separat danışıqlara gedərək seçkilər keçirdi və Le Peni kənarda qoydu. Eləcə də indiki şəraitdə Durovun həbs edilməsi, ona əsassız ittihamların irəli sürülməsi bir daha nümayiş etdirdi ki, Qərbdə söz, mətbuat azadlığı, ümumiyyətlə, mövcud deyil. Bu mənada Fransada hər zaman cəmiyyət üzvlərinin azadlıqlarının hakimiyyət resurslarından istifadə olunaraq necə məhdudlaşdırıldığının şahidi oluruq", - deyə o bildirib.

Deputat vurğulayıb ki, bundan əvvəl də mətbuatda zaman-zaman teleqram kanalının üzərinə hücumların olduğu müşahidə edilib. Hazırda kütləvi istifadə olunan əsas sosial şəbəkələr ABŞ-nin nəzarəti altındadır. ABŞ-nin Fransaya da təsir imkanları mövcuddur. Amerika sistemli şəkildə cəhdlər edirdi ki, teleqram şəbəkəsini də nəzarəti altına keçirsin. Bu da ondan xəbər verir ki, ABŞ-nin nəzarəti altında olan şəbəkələrdə istifadəçilərin şəxsi məlumatları təhlükə altındadır. Məxfilik onların hər zaman israrla reklam etdikləri kimi qorunmur. Əksinə, bu



məlumatlar o platformaların yaradıldığı ölkələr tərəfindən əldə oluna, istifadə edilə bilər. Məhz teleqramı da o cür sosial şəbəkələr sırasında görmək istəyirlər.

Qarşıdan ABŞ-də prezident seçkilərinin gəldiyini xatırladan E.Mirbəşiroğlu deyib ki, görünür, teleqram üzərindən də bu seçkilərdə hər hansı bir formada dəstək qazanmaq istəyiblər: "Bu versiyanı da diqqətdən kənarda qoymaq olmaz. Pavel Durovun üzərinə edilən hücumların bir istiqaməti də bununla bağlı ola bilər. Bundan əvvəl də Durovla bağlı müxtəlif ittihamlar səsləndirildiyini eşitmişdik. Ona qarşı irəli sürülən rəsmi ittihamlar içərisində həm də göstərilir ki, məlumatların qanun çərçivəsində əldə olunması üçün əməkdaşlıqdan imtina edib. Bu, həm də Qərbin etirafıdır. Yəni Qərb xüsusi orqanları teleqramdakı məlumatları əldə etmək istəyib, Durov isə buna qarşı çıxaraq istifadəçilərin hüquqlarını qorumaq istəyib. Belə hallar isə Qərb üçün məqbul sayılmır. Özünü fərqli tərzdə təqdim edən Qərb həm demokratiyanın, həm mətbuat azadlığının ən qatı, qəddar düşmənidir. Bunu hər zaman görürük və həmişə açıq səsləndirmək lazımdır".

Deputat qeyd edib ki, hansı ölkələrdə mətbuat azadlığı varsa, insanlar fikirlərini sərbəst deyə bilirsə, dövlətlər milli maraqları çərçivəsində müstəqil siyasət yürüdürsə, bu hallar Qərb üçün qəbuledilməzdir. Buna görə də ona qarşı ən qəddar şəkildə mübarizə aparırlar. Pavel Durovun həbsi növbəti dəfə göstərdi ki, Qərb onun nəzarəti altında olmayan hər bir hərəkəti, platformanı qəbul etmir. Bütün bunlar başda Fransa olmaqla, Qərbin insan haqları, söz azadlığı ilə bağlı saxta ritorikasının, reklam xarakterli yanaşmalarının göstəricisidir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## *Səfir:* "Son 4 il ərzində Niderland parlamenti Azərbaycan əleyhinə 26 qətnamə qəbul edib"

"Niderland parlamentində 2020-ci ilin oktyabrından 2024-cü ilin may ayına kimi Azərbaycan əleyhinə 26 təxribat xarakterli qətnamə qəbul edilib".

Bunu "Report"a müsahibəsində Azərbaycanın Niderlanddakı səfiri Rəhman Mustafayev deyib. "Niderland hökumətinə oxşar ruhda 200-dən çox sual ünvanlanıb. Bu ölkənin parlamentində heç bir ölkə Azərbaycan qədər "diqqət" görmür", - o bildirib.

Səfirin sözlərinə görə, sorğular Ermənistan tərəfindən formalaşdırılır: "İrəvan bir qayda olaraq xristian və ya ifrat sağçı partiyaları təmsil edən holland deputatlardan Azərbaycanı "qınamağı", "məkrli və yaxşı silahlanmış" müsəlman Azərbaycanı ilə qarşıdurmada "əzabkeş xristian Ermənistanı"nı dəstəkləməyi xahiş edir. Qeyd edim ki, deputatların əksəriyyəti Azərbaycanofobiya virusuna o qədər yoluxub ki, onları çox da dilə tutmaq lazım gəlmir - bu deputatlar ölkəmizə hücum etmək üçün hər cür bəhanədən istifadə etməyə hazırdırlar".

## Qərbi Azərbaycan İcması AŞPA-da təmsil olunanlardan Azərbaycana qarşı ayrı-seçkiliyə son qoymağı tələb edib

Məlum olduğu kimi, müəyyən dairələrin sifarişini yerinə yetirən qüvvələr sırf irqi ayrı-seçkilik əsasında Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycana qarşı genişmiqyaslı kampaniya başlatmış və Azərbaycan nümayəndə heyəti assambleyada öz fəaliyyətini dayandırmaq qərarı vermişdir. AŞPA-nın 2024-cü il yanvarın 24-də qəbul etdiyi anti-Azərbaycan qətnaməsi bu bədnam kampaniyanın pik nöqtəsidir.

Müxtəlif siyasi donlara girən, əslində isə, ifrat millətçi olan bir ovuc ünsürün qəbul etdiyi qətnamənin mətnindən də bu kampaniyanın əsl motivi aydın görünür - Azərbaycanofoblar ölkəmizin öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilmirlər. AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Qeyd olunub ki, Azərbaycan tərəfi özünün milli maraqlarına söykənərək Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı çıxan, irqi ayrı-seçkiliyə yol verərək Avropa İnsan Hüquqları Konvensiyasını pozan məlum AŞPA üzvlərini arzuolunmaz şəxslər elan etmişdir. İrqçiləri ifşa edən bu qərar Azərbaycanın suveren haqqıdır və insan hüquqlarının təşviqinə xidmət edir. Bu baxımdan AŞPA-nın sədri, Yunanıstan parlamentinin üzvü Teodoros Rousopoulosun və AŞPA-nın Almaniyadan olan üzvü, bədnam Azərbaycanofob Frank Şvabenin Azərbaycanın sözügedən qərarına münasibətdə ifadə etdikləri qəbuledilməzdir.

Son 30 il ərzində Azərbaycan torpaqlarının işğalına son qoyulmasına çağırmayan, XXI əsrdə, bir ölkənin paytaxtında "Türksüz Ermənistan" şüarı ilə keçirilən çoxminli aksiyaları pisləməyən, qayıdış hüququnun yalnız ermənilərə aid olduğunu təbliğ edən, qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışı ilə bağlı çağırış etməyən AŞPA-ya və bəzi Qərb təsisatlarına yığışmış bu "insan hüquqları aşiqləri"nin qərəzli fikirləri Azərbaycan xalqı üçün heç bir dəyər kəsb etmir.

Qərbi Azərbaycan İcması bir daha AŞPA-da təmsil olunan qüvvələrdən Azərbaycana qarşı ayrı-seçkiliyə son qoymağı tələb edir.

## "Əyilməz Fransa" partiyası Makronun avtokratiyasına qarşı nümayişə çağırıb

"Əyilməz Fransa" (La France insoumise-LFİ) partiyası bir çox tələbə həmkarlar ittifaqı təşkilatlarına Emmanuel Makronun güc tətbiqinə qarşı nümayiş çağırışı edib.

AZƏRTAC xəbər verir ki, E. Makron baş nazir təyinatı ilə bağlı məsləhətləşmələrindən sonra Yeni Xalq Cəbhəsinin (NFP) başçılıq etdiyi hökumət fərziyyəsini rədd etdikdən sonra "Əyilməz Fransa" partiyası etiraz nümayişlərinə çağırış barədə bəyanat yayıb. LFİ Tələbə Həmkarlar İttifaqı təşkilatlarını, Ali Məktəblər Birliyini (USL), həmçinin demokratiyanın müdafiəsinə sadiq olan siyasi təşkilatları, birlik və assosiasiyaları sentyabrın 7-də avtokratiyaya qarşı nümayişə qoşulmağa səsləyib.

Radikal sol partiya vəziyyətin müstəsna ciddiliyi qarşısında Fransa cəmiyyətindən sərt reaksiya tələb edib. "Respublika Prezidenti seçkilərin nəticələrindən və qanunvericilik orqanına seçkilərdə qalib gələn NFP hökumətindən imtina etməklə demokratiyanı ciddi təhlükə altına qoyur. Vəziyyətin fövqəladə ciddiliyi ilə üzləşdiyimiz üçün biz Fransa cəmiyyətini sərt reaksiya nümayiş etdirməyə çağırırıq.

Gənclər təşkilatlarının, Tələbə Həmkarlar İttifaqının və Liseylər Birliyinin 7 sentyabrda Emmanuel Makronun güc aktına qarşı böyük nümayiş çağırışına qoşuluruq. Ümid edirik ki, demokratiyanın müdafiəsinə sadiq olan siyasi və assosiativ qüvvələr bu çağırışa qoşulacaqlar",- deyə bəyanatda vurğulanıb.

## Makron Baş nazir axtarışını davam etdirəcək

Avqustun 23-də başlamış və 26-dək davam etmiş məsləhətləşmələrdən sonra Emmanuel Makron "institusional sabitlik" adı ilə seçkilərdə nisbi əksəriyyətə nail olmuş Yeni Xalq Cəbhəsi (NFP) hökuməti variantını istisna edib və avqustun 27-dən yeni məsləhətləşmələrə başlanılacağını bildirib.

AZƏRTAC xəbər verir ki, E.Makronun məsləhətləşmələrinin nəticəsinə görə, NFP hökuməti Milli Assambleyada təmsil olunan bütün digər qruplar tərəfindən dərhal bloklanmaya məruz qalacaq. Bundan sonra verilən ilk bəyannamə yenidən məsləhətləşmələrə başlamaq oldu. Avqustun 26-da Yelisey sarayından mətbuata verilən açıqlamaya görə, Emmanuel Makron "institusional sabitlik" naminə iyulda keçirilən parlament seçkilərinin ikinci turunda birinci olmasına baxmayaraq, Yeni Xalq Cəbhəsinin hökumətə seçilməsini istisna edib.

"Yalnız proqrama əsaslanan və yalnız ən çox deputatı bir araya gətirən alyansın təklif etdiyi partiyalara əsaslanan hökumət, Yeni Xalq Cəbhəsi l Milli Assambleyada təmsil olunan bütün digər qruplar tərəfindən dərhal bloklanacaq",- deyə açıqlamada bildirilir.

Emmanuel Makron bütün siyasi liderləri məsuliyyət nümayiş etdirməyə, xüsusilə sosialistləri, kommunistləri və ekoloqları digər siyasi qüvvələrlə əməkdaşlığa çağırıb. Mətbuata açıqlamada o da vurğulanır ki, LIOT qrupu və EPR, MoDem, Horizons, Radikallar və UDI partiyaları ilə müzakirələr müxtəlif siyasi güclər arasında koalisiya və birgə iş üçün mümkün yolları müəyyənləşdirib.

Avqustun 27-dən etibarən Makron dövlət və respublikaya xidmət təcrübəsinə malik partiya liderləri ilə baş nazir axtarışı üçün yeni məsləhətləşmələr dövrünə başlayacaq.

## *Türk tədqiqatçı:* "Azərbaycanın Qarabağda ermənilərə yaratdığı imkanı Ermənistan da qərbi azərbaycanlılar üçün yaratmalıdır"

"Qərbin türk millətinə qarşı düşmən münasibəti tarixboyu özünü büruzə verib. Bu gün Avropa İttifaqının bəzi ölkələri tərəfindən hər fürsətdə bu münasibətin davam etdirildiyi hər kəsə məlumdur. Onların ermənilər tərəfindən uydurulan yalanlara üstünlük vermələrinin əsas səbəblərindən biri isə mənfəətdir. Avropadakı erməni diasporu bu mənfəətin əsas qaynaqlarındandır. Bütün bunların təzahürü olaraq Avropa hər il qondarma "erməni soyqırımı"nı dilə gətirir. Bu gün Avropanın guya sülhə və bölgənin inkişafına töhfə verməsi üçün təyin edilən bəzi dairələri erməni separatçıları ilə təmaslar qurur və ya bu təmasları aktivləşdirir. Lakin ortada danılması mümkün olmayan bir fakt var ki, o da Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun torpaqları 30 ildən çox davam edən işğaldan azad etməsidir".



Bu fikirləri AZƏRTAC-a Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası sədrinin müavini, İğdır Azərbaycan Evi Dərnəyinin rəhbəri, saxta "erməni məsələsi" üzrə tədqiqatçı-yazar Sərdar Ünsal ifadə edib.

"Bu faktın qarşısında bəzi Qərb dairələrinin məsələyə yanaşmasını, Qarabağda qondarma "hökumət" və onun qondarma "parlamenti"ni quran bir sıra erməninin dünyaya baxışını türklərin məşhur "Ac toyuq yuxusunda darı görər" atalar sözü ən gözəl şəkildə izah edir. Təbii ki, ermənilərin 44 günlük Vətən müharibəsində üzləşdikləri acı məğlubiyyət onların havadarlarını narahat etdi. Bunun nəticəsidir ki, bu gün başda Fransa olmaqla, bir sıra Qərb qüvvələri Azərbaycana düşmən gözü ilə baxmağa başlayıblar və bunu hər zaman sezmək mümkündür", - deyə tədqiqatçı bildirib.

Avropanın bəzi ermənipərəst dairələrinin Azərbaycana qarşı təxribatlarının davam edəcəyini düşündüyünü söyləyən Sərdar Ünsal deyib: "Ermənilər, xüsusilə Xocalı və bu kimi bir çox digər soyqırımı törədən daşnaklar, onların havadarları unutmamalıdırlar ki, artıq Qarabağ həqiqi sahiblərinə qayıdıb. Qarabağ əsrlər boyu türk yurdu olub və bu, belə də qalacaq. Artıq o torpaqlar üçrəngli Azərbaycan bayrağı altında özünün inkişaf dövrünə qədəm qoyub".

Hazırda Qərbi Azərbaycan İcmasının İğdır təmsilçisi kimi fəaliyyət göstərən müsahibimiz ermənilərin təxribatlarının bununla da bitmədiyini deyib. O qeyd edib ki, indi də ermənilər "Qərbi Ermənistan" adı altında yaratdıqları, nə olduğu bilinməyən televiziya kanalı vasitəsilə 21 Türkiyə vilayətini, eləcə də indiki Ermənistan ərazisində qalan Qərbi Azərbaycan bölgələrini erməniləşdirməyə cəhd göstərir, orada yayımlanan xəyali xəbərlərlə belə mövzuları gündəmə gətirməyə çalışırlar. Lakin ermənilərin Rusiya imperiyasının əli ilə o ərazilərə köçürüldüyü, Türkiyə torpaqlarında baş verənlər, azərbaycanlıların ötən əsrin müxtəlif dövrlərində Qərbi Azərbaycandan misli görünməmiş vəhşiliklərlə qovulması və bu kimi bir çox hadisələr tarixi sənədlərlə ortadadır.

"Qərbi Azərbaycanın əzəli türk yurdu, Azərbaycanın bir parçası olması həqiqətini tarixi sübutlar kimi, canlı şahidlər də bilir və bu həqiqətlər nəsildən-nəsilə ötürülür. Necə ki, bu gün Azərbaycan Dövləti Qarabağ ermənilərinin öz evlərində yaşamaları üçün bütün imkanlar yaradır, biz də Qərbi Azərbaycana, Vətənimizə geri dönmək istəyirik. Bizim orada torpaqlarımız var. Çünki mənim ailəm də Qərbi Azərbaycandan min cür işgəncələrlə çıxarılanlardandır. Ata nənəm və onun ailəsi 1920-ci ildə ermənilərin İrəvana gəlmələrindən sonra başlayan qırğınlar səbəbindən Göy məscidin yanında yerləşən Təpəbaşı məhəlləsindəki evlərini tərk edib qaçmaq məcburiyyətində qalıb. Hətta nənəmin atası ermənilər tərəfindən qətlə yetirilib. Bütün bunlar sənəd və sübutla ortadadır. Bugünkü Ermənistan Çar Rusiyasının əli ilə Azərbaycan torpaqlarında qurulub. Biz bir gün bu torpaqlara qayıdacağıq, mən buna əminəm. Biz öz torpaqlarımızdan işgəncələrlə, zülmlə çıxarılmışıq. Bu gün Azərbaycanda olduğu kimi, Türkiyədə də yaşayan qərbi azərbaycanlılar, onların övladları, nəvələri öz yurd yerlərinə qayıtmalıdırlar. Qərbin qeyd edilən bəzi dairələri əsl həqiqətlə qarşılaşmaq istəyirlərsə, bir az da dönüb bizə baxsınlar, bizi dinləsinlər", - deyə o əlavə edib.



# Anar və Vüsalə dastanı

## Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin həyat yoldaşı Vüsalə Əliyeva: "Mənim üçün zaman keçməyib, elə Anarın şəhid olduğu o anda qalmışam"

**Zəriflərin dünyası**

**...Dünya zülmətə boyanmışdı. Hərdən üzünü göstərib yoxa çıxan gümüşü ayın qabağını kəsən və aralarında qovğa aparan qapqara buludlar lap alçaqda qəzəblə çarpışır, sonra isə zülüm-zülüm ağlayırdılar.**

**Qarayüklü ağ buludlar sonsuzadək uzanıb gedən üzümlükdə insan qaraltısına bənzəyən adda-budda dirəklərin birinə kürəyini söykəyərək ölümlə həyat arasında yaşam savaşı verən gənc oğlan üçün göz yaşları tökürdülər...**

**Anlar bir-birini qovur, gənc isə gecə kimi qara saçlarından, üz-gözündən süzülərək al qırmızı qanına qarışaraq torpağa hopan yağış damlalarının gətirdiyi rahatlıq hissi ilə gözlərini yumurdu... Getdikcə susuzluqdan alışıb-yanan ürəyi sərinləyir, özündə qəribə bir yüngüllük hiss edirdi...**

Amma bayaqdan bəri qulaqlarında səslənən "Ata, bizi qoyub getmə!.." yanıqlı harayı isə heç dinmək bilmirdi...

Beləcə, könlündə intizar, qulağında balalarının səsi, qəlbində ana Vətənin azadlığından doğan toxtaqlıqla daha bir igid oğul əbədiyyətə qovuşurdu...

2020-ci il oktyabrın 21-i - "Şuşanın açarı" sayılan yüksəkliyin Kəlbəcər elinin cəsur oğlu polkovnik-leytenant Anar Əliyevin rəhbərliyi altında böyük qəhrəmanlıqla azad olunduğu gün idi...



*Bitməyən bu iztirab məni öldürəcək,*
*sevgilim*
*Sən ordasan, mən burdayam,*
*ayrılıq zor sevgilim!*
*Qəlbim sənə məzar olsun, sevgilim!*
*Göz yaşlarım sənin üçün yağış olsun,*
*sevgilim!..*

### "Yoxluğu ilə ürəyimizə elə bir dağ çəkdi ki..."

O gecə Vüsalə yuxuda Anarı bir əkin sahəsində başdan-ayağa suyun, palçığın içində köməksiz vəziyyətdə görmüşdü. O hər nə qədər röya olduğunu bilsə belə, yuxunun yaratdığı ağır auradan, vahimədən, dəhşətli hisslərdən qurtula bilmirdi. Gün boyu elə hey fikri də, ruhu da Anarın yanında dolaşırdı. Öz-özünə təskinlik verirdi. Axı cəmi üç gün əvvəl - oktyabrın 18-də danışmışdılar, Anar ona hər şeyin qaydasında olduğunu demişdi. Hər zaman olduğu kimi, indi də ömür-gün yoldaşını inandıra bilmişdi ki, od-alovun içində olsa da, ona heç nə olmaz...

"Anar mənim həyat müəllimim olub, amma heç zaman mənə öyrətməyib ki, hərbçidir, bir gün gedib qayıtmamaq da var... O heç vaxt məni buna hazırlamayıb. Bəlkə də ömür boyu məni o sıxıntı içərisində saxlamamaq üçün belə edib... Bilmirəm...

Anar çox ailəcanlı idi, uşaqları ilə nəfəs alırdı. Hərbçilik çətin peşədir. Amma o nə qədər çətinlik çəksə belə, bunu büruzə vermirdi. İstəmirdi ki, az da olsa nəyəsə görə narahatlıq keçirək. Amma bir gün yoxluğu ilə ürəyimizə elə bir dağ çəkdi ki, göynərtisi heç zaman getməyəcək, yarası heç zaman sağalmayacaq, gözlərimizdəki yaş heç zaman qurumayacaq..."

Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Anar Əliyevin həyat yoldaşı Vüsalə Əliyevadır "Zəriflərin dünyası"nda...



Elə qəhrəman şəhidin doğum günü ərəfəsində gözyaşları içərisində Anarlı-Anarsız günlərindən danışır, onunla birlikdə yaşadığı acılı-şirinli 14 illik həyat gündəliyini vərəqləyir. Ömrünün bahar çağında yarından əbədi ayrılan, gənc yaşında qara saçlarına qəmdən bəyaz çələng hörülən Vüsalə xanım Anarın yoxluğundan duyduğu ağrı-acılı hisslərlə gah göz yaşlarına boğulur, gah səsi titrəyir, gah da fikirləri yarımçıq qırılır...

"Anarsızlığa dözmək çox çətindir. Elə bağlı idik ki, bir-birimizə... Bilirsiniz, belə dərdin heç bir təsəllisi olmur. Yalnız Allahın səbri, övladlarımın varlığı, bir də Anarın bu cür qəhrəman olmasının qürurudur məni yaşadan. Çünki, qəhrəmanlığın, şəhidliyin nə zirvə olduğunu bilirəm".

### Qəhrəmanlıq salnaməsi

Bu gün Anar Əliyevin günüdür - doğum günüdür...

1980-ci il avqustun 28-də Kəlbəcərdə ziyalı ailəsində dünyaya göz açıb... Kəlbəcərin ilk sakinlərindən olan "Kalvavəllər" - Kərbəlayi Vəlinin nəslinin nümayəndəsi olan Anarın atası Vaqif Əliyev və anası Səkinə Bayramova müəllimdirlər. Buna görə də o kiçik olarkən valideynlərinin iş yeri ilə əlaqədar Ağdərə rayonunun Göyarx kəndinə köçüb, 1988-ci ilə qədər orada rusdilli kənd məktəbində təhsil alıb. Həmin il Qarabağda məlum hadisələr başlayanda ailəsi Tərtər rayonunun Bəyimsarov kəndinə köçüb və Anar təhsilini burada davam etdirib. 1997-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirərək həmin il Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olunub. 2001-ci ildə hərbi məktəbi "qoşun kəşfiyyatı" ixtisası üzrə bitirib və həmin il hərbi vəzifəsinə başladıqdan sonra Müdafiə Nazirliyinin əmrinə əsasən, xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit ixtisas kursunun dinləyicisi olub.



Anar Əliyev 2012-2014-cü illərdə Silahlı Qüvvələrin Ali Hərbi Akademiyasında təhsilini davam etdirib. Akademiyanı bitirərək Müdafiə Nazirliyinin əmrinə əsasən, Naxçıvan Muxtar Respublikasının Hərbi Komandanlığına sərəncama göndərilib. 2018-ci ildə Naxçıvanda baş tutan Günnüt əməliyyatının ən fəal və cəsur iştirakçılarından olan Anar Əliyev əməliyyatda xüsusi fərqləndiyinə görə "Şücaətə görə" medalı ilə təltif olunub.

Vətən müharibəsi zamanı Anar Əliyev Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı briqada komandiri olub. Savaşın Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd cəbhəsində fərqlənib. Anar Əliyevin rəhbərliyi altında gedən döyüşlər və komandirliyini etdiyi xüsusi təyinatlı briqadanın qəhrəmanlığı sayəsində 14 oktyabrda Füzuli və Xocavəndin birlikdə 6 kəndi azad edilib. Anar Əliyevin qrupu Füzuli rayonunda yerləşən Məngələnata dağı və Qacar kəndində yerləşən Şaqriven dağı istiqamətlərində irəliləyərək polkovnik Tehran Mənsimovun qrupuna yol açıb. Anar Əliyevin rəhbərliyi altında Qubadlı istiqamətində üzərində xaç olan strateji yüksəklik də azad edilib.

Polkovnik-leytenantın komandirlik etdiyi briqadanın da iştirak etdiyi əməliyyatlar nəticəsində, 21 oktyabrda Füzulinin Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri işğaldan tam azad edilib. Həmin tarixdə Xüsusi Təyinatlı Qüvvələrin Komandanlığı tərəfindən Anar Əliyevə Xocavənd-Şuşa istiqamətində Azərbaycan Ordusunun Şuşaya daxil olmasında böyük rol oynayacaq strateji yüksəkliklərin, xüsusilə "772 metr" yüksəkliyinin, Xocavəndin Tuğ kəndinin azad edilməsi tapşırılıb.



### Şuşaya yolumuzu qanı bahasına açdı

Həmin gün Anar Əliyevin rəhbərlik etdiyi dəstə məharətlə, gözə çarpmadan, həm də qarşıya çıxan düşmən qüvvələrini məhv edəedə irəliləyib tapşırıq verilən yerin yaxınlığındakı üzüm bağına girir. Bu vaxt qarşıdakı "dot"dan gələn ani səs peşəkar kəşfiyyatçı qulağından yayınmır. O, heyətdən 8-9 nəfər götürərək təhlükəli yeri yoxlamağa gedir. Səngərə ilk girən Anar Əliyev qəfil düşmən əsgəri ilə üz-üzə gəlir və onunla əlbəyaxa döyüşə çıxır. Bu zaman açılan atəş nəticəsində çiynindən ağır yaralanmasına baxmayaraq, düşmənə aman verməyib onu məhv edir...

Lakin bu, Anar Əliyevin Vətən müharibəsində sonuncu qəhrəmanlıq döyüşü olur... Əvvəlcə, sağ qolundan, sonra isə gözündən yaralanır. Bu zaman leytenant Adil Əfəndiyev ona ilk tibbi yardım göstərir, lakin yaxınlıqda olan düşmənin açdığı intensiv atəş və atılan əl qumbarasından aldıqları ağır yaralar nəticəsində polkovnik-leytenant Anar Əliyev və leytenant Adil Əfəndiyev şəhid olurlar.

Qəhrəman döyüşçü Anar Əliyev qanı, canı bahasına olsa da "Şuşanın açarı" sayılan yüksəkliyi azad etmişdi və onun şəhadətindən sonra iki gün ərzində də döyüş yoldaşları çarpışaraq həmin yüksəkliyi düşmənə verməmiş, əllərində saxlayaraq Azərbaycan Ordusunun Şuşaya Zəfər yolunu açmışdılar...

25 oktyabr 2020-ci ildə II Fəxri xiyabanda torpağa tapşırılan Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Bölməsinin komandiri şəhid Anar Əliyev ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Həmçinin "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Vətən müharibəsi başlayana qədər Anar Əliyev fərdi usta dərəcəsinə layiq görülüb və 11 medalla təltif olunub. Prezidentin sərəncamına əsasən, Gəncə şəhərinin Gülüstan qəsəbəsində yerləşən Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbə Anar Əliyevin adı verilib.

*Əl-ələ tutub yanaşı gəzən,*
*Gözüylə baxışıb sevənlər də var.*
*"Səni sevirəm"- deyib, qızılgül verən,*
*Sadəcə sözlərdə sevənlər də var...*

### Xoşbəxtlik anları

...2006-cı ilin yağışlı bir payız günündə Anarla Vüsalə çal-çağırlı toyla ömürlərini birləşdirmişdilər. Düz 14 il xoşbəxtliklə dolu bir həyat yaşamışdılar. Tanrı onlara bir qız, bir oğul payı vermişdi. Qızlarına Nigar, oğlanlarına Əli adı vermişdilər. Onlar acılı-şirinli həyat yolunda daim bir-birlərinə dəstək olmuş, çətinlikləri də birlikdə dəf etmişdilər. Hələ nişanlı vaxtlarından Anar Vüsaləyə, necə deyərlər, zabit xanımı olmağın təlimini keçmişdi, amma bircə dəfə də olsun ona ayrılıqdan bəhs etməmişdi Günnüt əməliyyatına, Vətən müharibəsinə yola düşəndə də heç nə deməmişdi...



- Anar Günnüt əməliyyatı zamanı 3-4 ay evə gəlmədi. Bircə dəfə gəldi, onda da bizi Bərdəyə anamgilə göndərdi. Yalnız sonradan Günnüt əməliyyatı haqqında bilmişdik. Çünki, o heç vaxt işi ilə bağlı evdə danışmırdı. Xüsusi təyinatlı kəşfiyyatçı idi və vəzifəsinə uyğun xasiyyəti var idi. Dövlət sirrini heç kimlə bölüşməzdi.

Sentyabrın 27-si Əlinin ad günüdür. 2020-ci ildə sentyabrın 26-da Anar evə gəlib dedi ki, "gedək Əlinin ad gününü qeyd edək". Getdik, qeyd elədik, səhər saat 5-də Anar evdən çıxdı. Sonra isə televiziyada müharibənin başlandığını eşitdim. O, Naxçıvanda sərhədboyu xidmətdə idi. Çox darıxırdı ki, gedib müharibədə iştirak etsin. Əvvəlki gəlişlərində çox gərgin, kədərli idi, çünki müharibədən dostlarının şəhidlik xəbərini almışdı, gözlərində yaş, kədər var idi. Amma qəribə idi ki, sonuncu dəfə - oktyabrın 11-də evə gələndə çox sevincli idi, düşündüm ki, yəqin müharibə qurtarıb, ya başqa nəsə bir şey olub. O isə dedi ki, "yox, ola bilsin ki, biz də müharibəyə qatıldıq. Amma hələ dəqiq heç nə yoxdur, axşam evə gələcəm".

Küçədə onu maşın gözləyirdi. Nigarı öpdü, mənimlə görüşdü, Əli həyətdə oynayırdı, dedi onu da görüb gedəcəm işə... Demə, o bizimlə vidalaşmağa gəlibmiş. Anar həyətə düşdü, mən də eyvandan soruşdum ki, "Əlini gördün?" Cavab vermədi, üzünü çevirib baxmadan maşına oturub getdi. İndi düşünürəm ki, Anar o anda kövrəlib, mən görməyim deyə dönüb arxaya baxmamışdı...

Əli ilə son dəfə görüşə bilməməyi hələ də qəlbimdə yara kimi qalıb...



Anar axşam evə gəlmədi, zəngləşəndə dedi ki, müharibəyə gedirəm.

Oktyabrın 12-si axşam artıq o, Füzuli istiqamətində döyüşdə idi. Telefonla danışanda dedi ki, "sabahdan mənə zəng çatmayacaq, narahat olma, özüm imkan olan kimi zəng edəcəyəm". Xeyir-dua verdim, dedim, "səni qələbə ilə gözləyirik".

Biz telefonda halallaşdıq, amma yenə də ağlıma əbədi ayrılıq gəlmədi...

Son dəfə oktyabrın 18-i danışdıq...

Döyüşlərin ən şiddətli çağında, hər an ölümlə üz-üzə olsa da mənimlə elə toxtaq, ruh yüksəkliyi ilə danışdı ki, bunun Anarla son danışığımız olacağını ağlımın ucundan belə keçirmədim... Cəmi üç gün sonra, oktyabrın 21-də isə...

Anar şəhid oldu...

### Son vida

Oktyabrın 22-də Vüsalə eşidir ki, Anar yaralanıb və onu hospitalda görmək üçün Naxçıvandan yola düşür. Oktyabrın 25-də səhər tezdən hospitalın həyətinə daxil olanda isə gördüyü mənzərədən dünya gözündə qaralır...



- Baxdım ki, həyətin ortasına bir tabut qoyulub, üstündə Anarın şəkli... Sonra nə olduğunu xatırlamıram... Handan-hana özümə gələndə düşündüm ki, yox, tabutun içərisindəki Anar ola bilməz...

İnanmasam belə, ürəyimdə dəhşətli hiss var idi. Həmin zaman bir anlıq arxaya çevrilib uşaqların necə hönkürtü ilə ağladıqlarını gördüm. Sanki onlar o tabutun içərisində ataları olduğunu bilirdilər və qəbul etmiş bir şəkildə ağlayırdılar. Mən isə çarəsizcə onlara baxırdım, nə sarıla bilirdim, nə də o anda onlara təsəlli verəcək halda idim...

O anda yaşadığım hissləri dilə gətirmək mümkün deyil. Atalarının məzara qoyulması, basdırılması o iki uşağın gözlərinin qarşısında baş verdi... Bilirsiniz, bütün bunlara dözmək dəhşətdir... Sadəcə, elə o iki uşağa görə yaşamağa çalışıram...

Bakıdan Tərtərə getdik. Həmin zaman müharibənin ən dəhşətli vaxtları idi, Bərdəyə, Tərtərə çatanda gördüm ki, uzaqdan Qarabağın üzərində topun, güllənin tüstüsü qara bulud kimi yığışıb. O qara buludların içərisində bir topa var idi ki, sanki başında papaq, əlində silah bir əsgər dayanmışdı.

Qeyri-ixtiyari ona baxdım və fikirləşdim ki, o, Anardır, bizə baxır...

### O gəlmədi...

Uşaqları ovuda bilmirdim, Anarı istəyirdilər. Elə hey ağlayır, atalarına görə darıxdıqlarını, onu görmək istədiklərini deyirdilər. Soruşurdular ki, "atamız hara getdi, nə vaxt qayıdacaq?" Bu sualların hər biri ürəyimə xəncər kimi saplanırdı. Onların qarşısında çox çarəsiz, aciz idim... Bir gün Nigarla Əliyə dedim ki, atanız indi cənnətdədir və o, heç bir zaman bizə dönməyəcək. İzah etdim ki, biz bu gün necə bir dünyada yaşayırıqsa, atan da oradadır və bizi gözləyir...



Xeyli vaxt inanmadım ki, Anar şəhid olub, elə bilirdim ki, gələcək. Amma zaman keçdi, o gəlmədi... Deyirlər, zaman yaraları sağaldır, amma bu belə deyil, sadəcə zamanla artıq onun gəlməyəcəyini bilirsən və onun olmadığı bir həyata öyrəşməyə çalışırsan. Mənim üçün zaman keçməyib, elə Anarın şəhid olduğu o anda qalmışam. Sadəcə xatirələrlə özümü ovuduram...

Naxçıvanda olanda Anar axşam işdən evə gəlirdi bir yerə yığışıb o zamanlar yayımlanan türk serialı "Diriliş Ərtoğrul"a maraqla baxırdıq. Ümumiyyətlə, tarixi, qəhrəmanlıq filmlərini, seriallarını çox sevirdi...

2020-ci ilin yayında Anar məzuniyyətdə idi. Bir gün təsadüfən "Qəmərim" adlı mahnını eşitdi, çox xoşuna gəldi və dedi ki, bu, nə gözəl mahnıdır. Özü də ağırtəbiətli olduğu üçün həmişə asta-asta oynayardı. Dedi ki, indən belə toylarda bu mahnını çaldırıb oynayarıq. Əslində heç belə şeyləri sevən insan deyildi, amma həmin gün dedi ki, dur, oynayaq. İkimiz o mahnıya aram-aram qarşılıqlı xeyli oynadıq...

O günün xatirəsi indi də gözlərimin önündədir. Anardan sonra hansısa toyda bir daha qol qaldırmayacam. Amma bir gün övladlarımın toyu olanda yəqin ki, elə həmin o mahnıya qol qaldıraram, Anarın yerinə də...

Anar işi ilə bağlı nə qədər gərgin, yorğun olsa da, zamanını uşaqları ilə keçirir, onların dərsləri ilə maraqlanırdı. Övladları ilə bağlı arzuları çox idi. Onların universitetə qəbul olunduğu günləri görməyi çox istəyirdi. Təəssüf ki, bu arzularının yerinə yetdiyi günləri görməyə ömrü yetmədi...

İnşallah atalarının arzularını övladları layiqincə yerinə yetirər və Anarın da ruhu şad olar.

### "Biz atamı zəfərlə gözləyirdik, Zəfər gəldi, o isə..."

"Bəzən deyirlər ki, insan biri üçün darıxanda burnunun ucu göynəyir, mən indi onu yaşayıram, atam üçün burnumun ucu çox göynəyir. Onun səsi üçün çox darıxıram. İlk zamanlar düşünürdüm ki, bəlkə qapıdan içəri girər, deyər ki, "sağam". Amma illər keçdi, atam gəlmədi..."

Bu ürəkdağlayan sözləri qəhrəman şəhidin qızı Nigar söyləyir:

- Müharibə dövründə atamla bircə dəfə oktyabrın 15-də danışdım. Tapşırdı ki, özündən, qardaşından muğayat ol, dərslərini yaxşı oxu. Biz atamı zəfərlə gözləyirdik, Zəfər gəldi, o isə...

Onun gəlməsi ilə bağlı beynimdə o qədər fikirlər, planlar var idi ki... Amma hamısı ürəyimdə qaldı... İnşaalah onun arzularını yerinə yetirəcəm, atama layiqli bir övlad olacam".

Əli isə atası ilə bağlı xatirələrini belə dilə gətirir: "Atam məni gəzdirirdi, bir yerdə əylənirdik, onunla üzməyə gedirdik. Şahmat oynamağı da mənə öyrətmişdi, bir yerdə çoxlu oynayırdıq. İndi atam bəzən yuxularıma gəlir, qarşımda oturur. Amma mən ona söz deyirəm, o sadəcə baxır, heç nə demir..."

*Həsrət xəzanı, köksündə əsən,*
*Qışı bahar tək, sevənlər də var.*
*Pərvanə tək şamində, yanaraq sönən,*
*Cənnətdə qovuşub, sevənlər də var...*

### "Bir gün əbədi görüşəcəyik..."

Anar ilk dəfə Vüsalənin görüşünə qızılgüllə gəlmiş, öz ülvi hisslərini ona bu ətirli gül vasitəsilə bildirmişdi. İndi Vüsalə onun məzarını ziyarətə ancaq qızıl güllərlə gəlir. Göz yaşları içərisində Anarın ruhu ilə söhbətləşir... Atalarına övladlarının uğurlarından danışır...

Sonra tənha, könlüpərişan halda evinə dönür. Anarın divar boyu sıralanmış şəkilləri ilə ağlaya-ağla dərdləşir: "Bir ömür sənsizliyə məhkumuq. Bu bizim üçün ağır imtahandır. Bəzən düşünürəm ki, sənsizlik bir imtahan olsa da, sən həm də Allahdan bizə ən böyük mükafatsan. Axıb gedən illərə çarəsizcə baxıram. Keçmişə, sənli xoş günlərə boylanaraq, çox uzaqlarda şirin xatirələrin sədasını eşidirəm. Amma geriyə yox, irəliyə doğru addımlamalıyam. Yollar insanı çox yorur və hiss edirsən ki, yaşın yox, ruhun qocalıb. İnsanı yaşı deyil, yaşadıqları qocaldır. Bəzən yaşadıqları, bəzən də yaşaya bilmədikləri...



Taqətsiz olsam da, adına layiq şəkildə ayaqda durmağa çalışıram. Bəzən ayaqda durarkən, özümü unutsam da, gücümü itirmirəm. Ruhun mənə güc verir sanki... Amma buna nə qədər dözə bilərəm, onu özüm də bilmirəm.... Bir şeyi bilirəm. Önümdə uzanan ağrılı yolların sonunda "cənnət" görünür... Hərdən yuxuma qonaq ol. Ruhunla işıqlandır qaranlıq dünyamı. Dərdləşmək istəyirəm. Nigardan, Əlidən danışmaq istəyirəm. Sənin üçün çox darıxırlar. Nə isə... Səni çox incitməyim... Səninlə qürur duyuruq. Qəlbimizdə yaşayırsan, Anar! "Hələlik" deyirəm sənə, çünki bir gün əbədi görüşəcəyik..."

Beləcə, axşam düşür, səhər açılır... Günlər bir-birini əvəz edir...

Amma gənc qadının ürəyindəki o nisgil, həsrət, hicran sızıltısı bir an da olsun səngimir...

Qəhrəman şəhidin həyat yoldaşı Vüsalə Əliyeva deyir ki, hər zaman Anar Əliyevdə Vətənə, bayrağa qarşı böyük sevgi olub. Bu uğurda gözünü qırpmadan canını fəda edib. Şəhidlik zirvəsinə ucalıb: "Bu gün torpaqlarımız Anar Əliyev kimi minlərlə qəhrəmanın hesabına azaddır və bir şəhid xanımı kimi bunlarla qürur duyur, fəxr edirəm".



*Amma o da gerçəklikdir ki, bir həyat yoldaşı, ana olaraq çəkdiyi iztirablar, ağrı-acılar bir ömür boyu Vüsalənin ürəyində dağ kimi qalacaq. Keçirdiyi sarsıntılar, mənəvi əzablar gözlərində yaşa, dilində qüssəli şeirə çevriləcək...*

*Bu dünyanın yükünü çəkənlər üçün,*
*Yoxluğa, əzaba dözənlər üçün,*
*"Ölüm ayrılıq deyil", deyənlər üçün,*
*Cismiylə deyil, ruhuyla sevənlər üçün,*
*Əbədiyyətə qədər sevənlər də var,*
*Səninlə mən kimi, sevənlər də var...*

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

**Şeirlər Vüsalə Əliyevanındır**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İlin əvvəlindən 900 şəhid ailəsi üzvü və müharibə veteranı üçün kiçik bizneslər yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən özünüməşğulluq proqramı və Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində bu il artıq 900 şəhid ailəsi üzvü və müharibə veteranı üçün kiçik bizneslər yaradılıb.**





Onlardan 90 nəfəri şəhid ailəsi üzvləri, qalanları müharibə veteranlarıdır. Həmin vətəndaşlar üçün ilkin mərhələdə biznes təlimlər təşkil olunub. Təlimi bitirdikdən sonra seçdikləri iqtisadi fəaliyyət istiqamətləri üzrə kiçik bizneslərini qurmaları üçün aktivlərlə təmin ediliblər.

## Trans-Xəzər marşrutu üzrə yükdaşımaların həcmi artır

**2023-cü ilin sonunda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) üzrə yükdaşımaların həcmi 2022-ci illə müqayisədə 65 faiz artaraq 2,76 milyon ton (2022-ci ildə - 1,7 milyon ton) təşkil edib.**

AZƏRTAC Qazaxıstan hökumətinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, 2024-cü ilin ilk 7 ayında yükdaşımaların həcmi 2,56 milyon ton olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə (1,57 milyon ton) 63 faiz çoxdur.



Qazaxıstan Respublikası hökuməti darboğazların aradan qaldırılması, habelə 2027-ci ilə qədər Qazaxıstan, Azərbaycan, Türkiyə, Qazaxıstan və Gürcüstan arasında Orta dəhlizin inkişafı üzrə yol xəritəsinin həyata keçirilməsi üzərində işləyir ki, bu da dəhlizin ötürücülük qabiliyyətini ildə 10 milyon tona çatdıracaq.

Hesabatda göstərilir ki, TITR-in sabit və rəqabətqabiliyyətli marşrut kimi yaradılmasında təkcə dəhliz boyu ölkələr deyil, həm də Cənub-Şərqi Asiya, Fars körfəzi və Avropa regionları maraqlıdır.

Orta dəhliz kimi də tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Çin və Avropa ölkələrini birləşdirir.

# Sabit iqtisadi inkişaf, davamlı büdcə profisiti və aşağı dövlət borcu

### Bunlar investorları ölkəmizə cəlb edən əsas şərtlərdir

**Bu gün Azərbaycana birbaşa xarici investisiya qoyuluşu artır. Mərkəzi Bankın məlumatına görə, 2024-cü ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına cəlb edilən birbaşa xarici investisiyaların ümumi məbləği 1,5 milyard dollar təşkil edib. Bu, ötən ilin birinci rübü ilə müqayisədə 0,4 faiz çoxdur.**



Ölkə iqtisadiyyatına yatırılmış birbaşa xarici investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 87,6 faiz təşkil edib. Qeyri-neft-qaz sektoruna cəlb olunmuş birbaşa xarici investisiyaların ümumi məbləği isə 186,5 milyon dollar olub. Son dövrlər aparılan islahatlar, məsələn, sənaye parklarının, sənaye məhəllələrinin fəaliyyəti, Qarabağda və Şərqi Zəngəzurdakı sənaye zonalarının, Ələt Azad İqtisadi Zonasının yaradılması xarici investorlarda ölkəmizə böyük maraq yaradıb. Xüsusən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına sərmayə yatırmaq istəyən xarici investorların sayı daha çoxdur.

Bu reallıq "Fitch Ratings" beynəlxalq kredit reytinqi agentliyinin diqqətindən yayınmayıb. Agentlik öz reytinq cədvəlində Azərbaycanın xarici valyutada uzunmüddətli emitentin defolt reytinqini (IDR) sabit proqnozla BB+dan BBB-yə yüksəldib. Məlumat üçün bildirək ki, "Fitch Ratings" dünyada reytinq agentliyi kimi tanınan şirkətdir. Əsas fəaliyyəti dünya kredit bazarlarına kredit qabiliyyətinin qiymətləndirilməsinə görə analitik tədqiqatların nəticələrini və məlumatlarını hazırlamaqdır. Qeyd olunan məlumatdakı BB kredit qabiliyyətinin kifayət etməyəcək səviyyəsi, BBB isə kredit qabiliyyətinin kifayət qədər yüksək səviyyəsi deməkdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin müdiri Günay Quliyeva bildirib ki, bu qiymət Azərbaycanın iqtisadi dayanıqlığını və güclü xarici iqtisadi tarazlığını göstərir, investisiya və iqtisadi artım üçün perspektivli gələcəyə işarə edir. Onun sözlərinə görə, reytinq agentliyinin məlumatında Azərbaycanın suveren xarici valyuta aktivlərinin 2024-cü ildə 74 milyard dollara çatacağı qeyd olunur ki, bu da proqnozlaşdırılan ÜDM-in 98 faizini təşkil edir. Qeyd edək ki, bu ehtiyatların əsas hissəsi Dövlət Neft Fonduna məxsusdur. Aktivlərin yüksək səviyyəsi Azərbaycanın xalis suveren aktiv mövqeyinin BBB və A reytinqli (kredit qabiliyyətinin yüksək səviyyəsi) suverenlər arasında ən yüksək mövqedə qalmasını təmin edir.

Hesabatda göstərilir ki, cari əməliyyatlar hesabının profisitinin proqnozlaşdırılan azalmasına baxmayaraq, Azərbaycan yüksək neft və qaz gəlirləri ilə dəstəklənən BBB kateqoriyasında liderliyini davam etdirəcək. "Fitch Ratings" həmçinin Azərbaycanın xalis xarici kreditor mövqeyinin 2024-cü ildə ÜDM-in 154 faizə qədər möhkəmlənəcəyini və BBB suverenləri arasında ən güclü olacağını təxmin edir.

Bundan əlavə, "Fitch Ratings"in hesabatında hökumət borcunun 2026-cı ilə qədər aşağı səviyyədə qalaraq ÜDM-in 22,7 faizə qədər artacağı proqnozlaşdırılır. Paralel olaraq, hökumət tərəfindən aparılan inflyasiyaya nəzarət tədbirlərinin effektivliyi vurğulanaraq, onun 2024-cü ildə hədəf inflyasiyadan aşağı səviyyədə - orta hesabla 3,5 faiz olacağı güman olunur. Eləcə də Qarabağın bərpasının müsbət təsirləri səbəbindən iqtisadi artımın tsiklik olaraq 3,2 faizə qədər bərpa olunduğu qeyd edilir.

İİTKM-in şöbə müdirinin sözlərinə görə, "Fitch Ratings" tərəfindən Azərbaycanın suveren kredit reytinqinin yüksəldilməsi ölkəmizin sabit iqtisadi vəziyyətinin və maliyyə sağlamlığının vurğulanması deməkdir ki, bu da gələcək investisiyalar üçün vacib şərtdir. Azərbaycanın sabit iqtisadi inkişafı, davamlı büdcə profisiti və aşağı dövlət borcu investorlara hər ölkədə rast gəlinməyən stimul verir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## 114 min pensiya, müavinət və təqaüd proaktiv qaydada təyin olunub

**Bu ilin 7 ayında 114 min pensiya, müavinət və təqaüd təyinatı elektron sistemlər üzərindən proaktiv qaydada həyata keçirilib. Onlardan 25 mini pensiya, 89 mini müavinət və təqaüd təyinatları olub.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ilin əvvəlindən başlayaraq sosial təminat növləri üzrə ödənişlərin təyinatı elektronlaşdırılıb.

Vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən müvafiq sosial ödənişlərin təyinatı e-sistem üzərindən avtomatik şəkildə həyata keçirilir.

## Sərsəng su anbarında suyun səthi rekord səviyyəyə çatıb

**Zəngin su ehtiyatlarına malik Qarabağın Sərsəng su anbarının səthinin sahəsində əvvəlki illərlə müqayisədə bu il rekord səviyyədə artım olub.**



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 2014-2023-cü illər ərzində anbarın su səthində müəyyən artma-azalma olsa da, 2024-cü ilin peyk təsvirlərinin analizləri son 10 il ərzində su səthinin sahəsinin maksimum səviyyəyə - 1065 hektara çatdığını göstərir. Uzun illər mənfi ekoloji təsirə məruz qalmış Sərsəng su anbarında suyun səthinin artması ötən ildən etibarən su anbarının ekosisteminin bərpasının nəticəsi hesab oluna bilər. Qarabağın ən iri su hövzəsi olan Sərsəng su anbarı Qarabağ iqtisadi rayonu və ətraf bölgələr üçün strateji əhəmiyyətə malikdir.

Qeyd edək ki, "Azərkosmos" tərəfindən ölkə ərazisində su resurslarının səmərəli istifadə edilməsi məqsədilə davamlı olaraq təhlillər aparılır.

## Dünya birjalarında neft ucuzlaşdı

**ICE London qitələrarası birjasında keçirilən ticarət əməliyyatlarının gedişində "Brent" neftinin ixracına dair 2024-cü ilin oktyabr müqaviləsinin dəyəri 0,15 faiz azalaraq 1 barelə görə 80,24 ABŞ dolları təşkil edib.**

Trend xəbər verir ki, Nyu-Yorkun NYMEX əmtəə birjasında bu ilin noyabrında ixrac etməklə WTI markalı neftin 1 barelinin qiyməti isə 0,22 faiz azalaraq 1 barelə görə 77,25 ABŞ dollarına enib.

# Sumqayıtda "İVECO" avtomobilləri yığılacaq

### İnvestisiya dəyəri 19,2 milyon manat olan yeni müəssisədə 90 nəfər daimi işlə təmin ediləcək

**Ölkədə aparılan iqtisadi islahatların hədəfi qeyri-neft sektorunun inkişafı olmaqda davam edir. Ötən dövr ərzində bu sektora kapital qoyuluşu artmış və bu səbəbə məhsul istehsalında xeyli irəliləyiş müşahidə olunmuşdur. Bununla yanaşı, qeyri-neft sektorunun inkişafında sanballı payı olan sənaye parkları və məhəllələrində yeni istehsal müəssisələri fəaliyyətə başlamışdır.**




İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki Sumqayıt Kimya Sənaye Parkının rezidenti "STP" MMC-yə (STP Şirkətlər Qrupu) daxil olan STP Polimer Zavodunda Azərbaycanda ilk dəfə delinatorlar istehsal ediləcək. Cari ilin sonunadək müəssisədə 10 min ədəd delinatorun istehsal edilməsi nəzərdə tutulur. Məlumat üçün bildirək ki, delinator nəqliyyat vasitələrini piyadaların hərəkətindən ayırmaq, ikitərəfli yollarda zolaqları bölmək, orta zolaqlarda təhlükəsizliyi təmin etmək, piyadaları və sürücüləri xəbərdar etmək üçün istifadə olunan çevik, qırılmaz materialdır.

İnvestisiya həcmi 619 milyon dollar olan STP Şirkətlər Qrupunda hazırda 2000 nəfərə yaxın daimi işlə təmin edilib. Şirkət tərəfindən 2017-ci ildən cari ilin yarısı da daxil olmaqla, 972 milyon manatlıqdan çox satış həyata keçirilib ki, bunun da 274 milyon manatlığı ixracın payına düşür. İstehsal edilən məhsullar dünyanın 15-dən çox ölkəsinə (İngiltərə, Kanada, İsveç, Sinqapur, BƏƏ, İraq, Rumıniya, Türkiyə, Rusiya, Qazaxıstan, Tacikistan, Gürcüstan, Ukrayna və s.) ixrac edilib.

Cari il Sumqayıt Kimya Sənaye Parkında "Az-Tex-İmport" MMC tərəfindən "İVECO" markalı yüngül, orta və ağırtonnajlı yük avtomobillərinin istehsalı müəssisəsi də fəaliyyətə başlayacaq. MMC-nin təsisçisi Samir İbadullayevin sözlərinə görə, müəssisənin tikintisində görülən işlər yekunlaşmaq üzrədir. Yaxın aylar müəssisədə avadanlıqların quraşdırılması prosesinə başlanılacaq. Qeyd edək ki, 90 nəfərin daimi işlə təmin ediləcəyi müəssisənin investisiya dəyəri 19,2 milyon manatdır. Layihə üzrə indiyədək görülən işlərə artıq 6 milyon manatdan çox investisiya yatırılıb.

Yeni müəssisədə il ərzində 100 ədəd avtomobilin istehsal olunması nəzərdə tutulur. Burada istehsal olunan məhsullar daxili bazarla yanaşı, Rusiya, Gürcüstan, Türkmənistan və İrana da ixrac ediləcək.

Onu da bildirək ki, "Az-Tex-İmport" MMC-yə 2022-ci ilin may ayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib və müəssisənin bu ilin sonunda fəaliyyətə başlaması planlaşdırılır.

Ümumilikdə 2013-cü ildən ölkə üzrə sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,8 milyard manat dəyərində 151 sahibkarlıq subyektinə rezident statusu verilib və sərmayədarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb, 10500-dən çox daimi iş yeri yaradılıb. Sənaye zonaları istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından önəmlidir. Belə ki, 2015-ci ildən 2024-ci ilin ilk yarımili də daxil olmaqla, sənaye zonalarında 13,5 milyard manatlıq məhsul satışı həyata keçirilib. Həmin məhsulların 4,35 milyard manatlığı xarici bazara ixrac edilib. O cümlədən, bu ilin 6 ayında sənaye zonalarında 1,4 milyard manatlıq satış həyata keçirilib ki, onun da 476,6 milyon manatlığı xarici bazarlarda satılıb. Həmin dövr sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 16,1, ixracında isə 26,9 faiz olub.

Xatırladaq ki, Cənubi Qafqazda ən böyük olan Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 6,2 milyard manat olan 40 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Parkda hazırda 24 müəssisə fəaliyyət göstərir. Qeyd etdiyimiz kimi, cari ilin sonunadək daha 2 müəssisənin fəaliyyətə başlaması planlaşdırılır. Yeni fəaliyyətə başlayacaq müəssisələr tərəfindən sənaye parkına ümumilikdə 40 milyon manata yaxın investisiya qoyulmaqla 300-dən artıq əlavə iş yeri yaradılacaq.

Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi və sənaye potensialının inkişafı məqsədi ilə yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında da sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb ki, bu da iş adamlarının sözügedən sənaye zonalarına marağını artırır. Hazırda bu sənaye parklarında ümumilikdə investisiya kapitalı 330 milyon manatdan çox olan 39 sahibkarlıq subyektinə rezidentlik, 8 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlıq subyektləri tərəfindən sənaye parklarında 2900-dək daimi iş yerinin yaradılması nəzərdə tutulur. Artıq rezidentlər tərəfindən sənaye parklarına 89 milyon manatdan çox investisiya yatırılıb, 330-dan artıq daimi iş yeri yaradılıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Aqrar Sığorta Fondunda heyvandarlıq ekspertləri üçün təlimlər keçirilir

**Aqrar Sığorta Fondunda heyvandarlıq sığortası üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün təlimlərə başlanılıb.**

Ölkənin müxtəlif bölgələrindən olan baytar, zootexnik və başqa əlaqəli ixtisasa sahib 5 namizəd təlimlər zamanı heyvandarlıq sığortası, sığortanın əhatə etdiyi predmetlər və risklər, sığorta hadisəsi baş verdikdə dəyən zərərin hesablanması və sair mövzular üzrə biliklərə yiyələnəcəklər. İştirakçılara təlimlər Aqrar Sığorta Fondunun heyvandarlıq sığortası ekspertləri tərəfindən keçirilir.

Kənd təsərrüfatı heyvanlarının sığortalanması zamanı təsərrüfatlara baxışın keçirilməsi, eləcə də hadisə baş verdikdə onun səbəblərinin müəyyən edilməsi aqrar sığorta ekspertləri tərəfindən reallaşdırılır. Bu xidmətin müqabilində Aqrar Sığorta Fondu tərəfindən ekspertlərə xidmət haqqı ödənilir.

Qaydalara əsasən, Aqrar Sığorta Fondunda təlimlərdə iştirak etmiş namizədlər Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən imtahanda iştirak edəcəklər. İmtahandan uğurla keçən namizədlər müstəqil aqrar sığorta eksperti sertifikatını alaraq fəaliyyətə başlayacaqlar.

Qeyd edək ki, Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi çərçivəsində əkin sahələri ilə yanaşı, heyvandarlıq təsərrüfatlarının sığortalanması da həyata keçirilir.

## 12 yaşayış məntəqəsini birləşdirən yolun tikintisi yekunlaşıb

**Ağsu rayonunda Ağsu-Kürdəmir-Bəhrəmtəpə avtomobil yolundan ayrılan Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba yolunun tikintisi yekunlaşıb.**

Uzunluğu 26,4 kilometr olan yol 4-cü texniki dərəcəyə uyğun olaraq təkmilləşdirilib. Yolların eni 10 metrə qədər genişləndirilib, bura 6 metr hərəkət hissə və 2 metr çiyinlər daxildir.

Layihənin icrası Ağsu rayonunun Ərəbmehdibəy, Dədəli, Qasımbəyli, Xəlilli, Mustafalı, Göydəlləkli, Təklə, Dəlilər, Qaraqoyunlu və Kəndoba kəndlərinə gediş-gəlişin asanlaşmasına, marşrut boyu yaşayan əhalinin yetişdirdiyi kənd təsərrüfatı məhsullarının tez və xarab olmadan bazarlara çatdırılmasını təmin etməklə kənd təsərrüfatının inkişafına gətirib çıxaracaq.



FORMULA 1 QATAR AIRWAYS AZERBAIJAN GRAND PRIX 2024
13-15 SEPTEMBER

Fəxr et, qürur duy,
AZƏRBAYCAN!



# Sürətin 8-ci zirvəsi

## Bakı növbəti "Formula-1"ə hazırlaşır

**Bakı sayca 8-ci dəfə möhtəşəm bir tədbirə - "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyi edəcək. Sürətsevərlər sentyabrın 13-15-də "Gözlənilməzə hazır ol" şüarı ilə keçiriləcək yarışda planetin ən güclü 10 komandasının və 21 pilotun əzmkar mübarizəsinin şahidi olacaqlar. Yarışın keçiriləcəyi Bakı Şəhər Halqası bəzi xüsusiyyətlərinə görə digər "Formula-1" treklərindən seçilir.**

**Şəhərin müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası şəhər trekidir və digərləri ilə müqayisədə burada maksimal sürətin növbəti dəfə qeydə alınacağı gözlənilir.**

























### "Formula-1" Bakısız təsəvvür edilmir

Bakı küçələri 2016-cı ildən bəri 306 yarış dövrəsi boyu çoxlu hadisələrə şahid olub. Dramatik hadisələr, trekdə qəzalar, partlayan təkərlər, bəzən aqressiya ilə müşahidə olunan qalibiyyət və məğlubiyyətlər Bakı üçün xarakterikdir. Son yeddi yarışda qalib gəlmiş yeddi fərqli pilot, eyni zamanda yarışın ən sürətli dövrəsinə imza atıb. İndiyədək Bakıda azarkeşlər bir çox hadisələrə - trek insidentlərinə, təkər partlamalarına, çoxsaylı qırmızı bayraqlara və təhlükəsizlik maşınlarına şahid olublar. Bundan əlavə, yarışlardan yalnız birində hər dövrəyə liderlik edən bir lider pilot olub. Orta hesabla, hər il keçirilən Azərbaycan Qran-prisində yarış boyu ilk üç pilot liderlik üzrə mübarizəyə qoşulub. Daha gərgin liderlik mübarizəsi ilə yadda qalan 2021-ci il yarışında isə bu rəqəm beşə yüksəlib.

Artıq dünyadakı "Formula-1" həvəskarları bu yarışı Bakısız təsəvvür etmirlər. Xüsusi olaraq inşa edilmiş Bakı Şəhər Halqası isə bu yarışlarda özünəməxsusluğu ilə seçilir. Trekin uzunluğu 6 kilometrdən bir qədər artıqdır. Bu trek uzunluğuna görə dünyada ikincidir.

Unikal xüsusiyyətlərə sahib Bakı Şəhər Halqası ətrafındakı tribunaların sayı 9-dur. Bunlar "Abşeron", "Azneft, "Muğam", "Sahil", "İçərişəhər", "Qız Qalası", "Bulvar", "Xəzər" və "Filarmoniya" tribunalarıdır. Müşahidələrimizə əsasən əminliklə söyləyə bilərik ki, hazırlıq işləri ən yüksək səviyyədə görülməkdədir. Həmçinin ayaqüstü zonalar üçün də bilet satışı həyata keçirilir. Ümumi tamaşaçı tutumu (ayaqüstü zonalar daxil olmaqla) 30 minə yaxındır. Trekin ən geniş yeri 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan bölmələrində yerləşir. Ən ensiz hissəsi isə 7,6 metrdir (Qoşa qala divarlarının yanı). Start xətti Azadlıq meydanında, finiş xətti isə Abşeron tribunasının qarşısında təyin olunan trekboyu döngələrin sayı 20-dir.

Onu da xüsusi olaraq qeyd edək ki, quraşdırılan tribunalar elə yüksək səviyyədə hazırlanıb ki, daim istifadədə olsa belə, dağılıb sıradan çıxmır. Bu mötəbər yarışın KİV-də yüksək səviyyədə işıqlandırılmasına təcrübəli müxbirlər və fotomüxbirlər cəlb edilib. Beləliklə, dünyanın ən böyük informasiya alyansları, eləcə də ölkəmizin xəbər agentlikləri Bakıda keçiriləcək "Formula-1" yarışı barədə xəbərləri dünyaya yayacaqlar.

### İlklərlə yadda qalan mərhələ

Ölkəmizin sayca 8-ci dəfə evsahibliyi edəcəyi, cari mövsümün 17-ci mərhələsi olacaq "Formula-1"in dünyada artıq Azərbaycan modeli yaranıb. 2016-cı ildən etibarən ölkəmizdə keçirilən "Formula-1" Qran-prisi həm ölkəmizin tanıdılmasına, həm də iqtisadiyyatın inkişafına böyük töhfə verib. Sürət yarışı Azərbaycanın görməli və tarixi yerlərinin, istirahət-kurort imkanlarının, mükəmməl mətbəx və gözəl təbiətinin təbliğində, eləcə də ölkənin xidmət sektorunun inkişafında müsbət rol oynayıb.

"Formula-1" yarışlarının Azərbaycanın paytaxtında keçirilməsi ilə bağlı FOM (Formula One Management) ilə danışıqlar 2013-cü ildə başlanıb və 2014-cü ilin martında ilkin müqavilə imzalanıb. Azərbaycanda Qran-prinin təşkili ilə dövlət səviyyəsində məşğul olunub. Bu da layihənin statusunu və onun ölkə üçün əhəmiyyətini göstərir. İlk dəfə 2016-cı ildə paytaxtımızda keçirilən "Formula-1" Avropa Qran-prisinin Bakı mərhələsi yeniliklə yadda qalmışdı. Bu, sıralama turları ilə bağlıdır. Əvvəlki qaydalara görə, 18 dəqiqə davam edən birinci və 15 dəqiqəlik ikinci seansların nəticələrinə əsasən, ən pis nəticə göstərən 6 pilot mübarizədən kənarlaşdırırdı. 10 pilot 12 dəqiqəlik üçüncü seansdakı göstəricilərə görə yarışa start verirdi. Yeni qaydaya görə isə seansın sonunda yox, 90 saniyədən-bir ən yavaş pilotun mübarizəni dayandırması nəzərdə tutulub.

Etiraf edək ki, idmanın bu növünün özünəməxsus azarkeş ordusu olsa da, "Formula-1" ölkəmiz üçün yenidir. Azərbaycan Qran-prisinin təşkilatçısı olan Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin uğurlu təbliğat kampaniyası ölkəmizdə "Formula-1" idmanını sevənlərin sayını artırıb. Azərbaycanın təbliğini qarşıya məqsəd qoyan Əməliyyat Şirkəti turistlərin ölkəmizə cəlb edilməsinə nail oldu. Ölkəmizdə keçirilən son 7 yarış ərəfəsində paytaxtda hotellərin dolu olması yarışın iqtisadi baxımdan mühüm rol oynadığını nümayiş etdirdi. Auditoriyasına görə futbol üzrə dünya çempionatından və Olimpiya Oyunlarından sonra üçüncü yerdə olan "Formula-1" yarışına evsahibliyi etmək, ilk növbədə, ölkənin qüdrətindən xəbər verir.

### İngiltərədən Azərbaycanadək

"Formula-1" yarışlarının yaranma tarixi XX əsrin 20-30-cu illərini əhatə edir. Həmin illər təşkil olunan Avropa Qran-pri turnirləri qısa müddət ərzində böyük marağa səbəb oldu. Lakin 2-ci Dünya müharibəsinin başlanması ilə bu yarışlara da fasilə verildi. Yalnız müharibədən sonra yenidən aktiv fəaliyyətə başlayan FİA, formula yarışlarına da yeni qaydalarla start verdi.

Bu növ üzrə ilk rəsmi dünya çempionatı isə 1950-ci il mayın 13-də İngiltərənin Silverstoun trekində təşkil olundu. Britaniya kral ailəsinin də maraqla izlədiyi turnirdə 21 bolid qələbə uğrunda mübarizə apardı. Həm təsnifat, həm də əsas mərhələdə finiş xəttinə birinci gələn "Alfa Romeo"nun italyalı pilotu Cüzeppe Nino Farina "F1" yarışının ilk qalibi kimi tarixə düşdü. Birincilik uğrunda mübarizədə onun əsas rəqibi komanda yoldaşı, argentinalı Xuan Manuel Fanxio oldu. Lakin sonralar X.M.Fanxio bu məğlubiyyətin əvəzini yetərincə çıxdı. Belə ki, o, karyerası ərzində 5 dəfə (1951-ci, 1954-cü, 1955-ci, 1956-cı və 1957-ci illərdə) dünya çempionu adını qazanmaqla rəqiblərinə aman vermədi. Hər il "Formula-1" üzrə dünya çempionatı çərçivəsində Qran-pri adlanan bir neçə mərhələ yarışı keçirilir. Bu mərhələlər müxtəlif ölkələrdə, o cümlədən Avstraliya, Monako, Bəhreyn, İspaniya və bir çox başqa ölkədə təşkil edilir.

Dünyada geniş tamaşaçı auditoriyasına malik bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan "Formula-1" Qran-priləri bir zamanlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanın dörd bir tərəfində təşkil edilir. "Formula-1"də qələbə uğrunda komandalar və heyətində pilotlar mübarizə aparır. Hər komandada iki pilot və buna müvafiq olaraq iki bolid olmalıdır. Mövsüm boyu keçirilən "Formula-1" Qran-pri yarışlarında ən çox xal toplayan pilot dünya çempionu olur.

Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rola malikdir. Bir çox ölkələr beynəlxalq tədbirlərə evsahibliyi etmək üçün rəqabət aparır, yarış və tədbirlərin ev sahibləri 5-10 il sonra üçün belə müəyyən olunur.

Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabitliyə və təhlükəsizliyə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Azərbaycan olduqca böyük, beynəlxalqmiqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara - bir sözlə, nüfuzlu tədbirlərə evsahibliyi edib. Bu miqyaslı tədbirlərin keçirilməsi üçün etimadın göstərilməsi təsadüfi deyil, bu, əlbəttə, Azərbaycanın qazandığı mövqeyin, ölkəmizin beynəlxalq çəkisinin, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında qazandığı reputasiyanın ifadəsidir. Eyni zamanda belə tədbirlər ölkəmiz, dövlətimiz üçün müəyyən dividendlər gətirir.

*Elçin CƏFƏROV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Gəncəlilər Heydər Əliyev Fondunun fəaliyyətinə yüksək qiymət verirlər




Gəncədə "Heydər Əliyev Fondu və Gəncə" adlı tədbir keçirilib. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, bələdiyyə sədrləri, eləcə də idarə, müəssisə, təşkilat rəhbərləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə Azərbaycanın hərtərəfli inkişafı proseslərində daim yaxından iştirak edərək mühüm xidmətləri ilə seçilən, ictimaiyyətin böyük rəğbət və ehtiramını qazanmış Heydər Əliyev Fondunun fəaliyyəti haqqında geniş məlumat verilib. Çıxış edən Niyazi Bayramov bildirib ki, Heydər Əliyev Fondu Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 20 il ərzində ölkə həyatının bütün sahələrini əhatə edən irimiqyaslı layihələr həyata keçirib. YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov isə vurğulayıb ki, fəaliyyəti dövründə fond Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl işlər aparıb.

Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanmış "Heydər Əliyev Fondu və Gəncə" adlı videoçarx nümayiş etdirildikdən sonra Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin Heydər Əliyev Fondunun 20 illiyi münasibətilə hazırladığı "Mehriban xanım Əliyeva: humanizmin və xeyriyyəçiliyin hamisi" adlı kitabın təqdimatı olub. Kitabda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fondun 20 il ərzində həyata keçirdiyi layihələrdən bəhs edilir.

Tədbir Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Göygöl Mahnı və Rəqs Ansamblı solistlərinin ifasında nəfis muğam nümunələri ilə yekunlaşıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Diplomatic World Sweden" Azərbaycanın görməli yerlərindən yazıb

Diplomatların, siyasətçilərin, həmçinin İsveçdə akkreditə olunmuş diplomatik korpusun əməkdaşlarının əsas auditoriyası olan "Diplomatic World Sweden" portalında Azərbaycanın görməli yerlərindən bəhs edilən məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanı ziyarət et" sərlövhəli məqalənin müəllifi qədim memarlıq və müasir şəhərsalmanın füsunkar vəhdətinin şahidi ola biləcəyiniz Odlar Yurduna səyahətə yollanmağı tövsiyə edir.

Məqalədə İçərişəhər, Abşeron Milli Parkı, Qarasu vulkanı, Naftalan kurortu, Qobustan kimi görməli yerlər, eləcə də Azərbaycanın mənzərəli subtropik dəniz kurortları barədə müfəssəl məlumat verilir.

Müəllif sonda yazır: "Avropa və Asiyanın qovşağında yerləşən Azərbaycanın səyahətçilərə təklif edəcəyi çoxlu sayda görməli yer var. Ziyarət etməyə dəyər!"


DIPLOMATIC WORLD SWEDEN
Besök Azerbajdzjan

# Qlobal faciə çox yaxındır

## BMT-nin Baş katibi fəlakət təhlükəsinin real olduğunu bəyan edib



Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antoniu Quterreş deyib ki, böyük çirkləndiricilər tullantıları azaltmaq üçün məsuliyyət daşıyırlar. Əks halda, qlobal fəlakətlə üzləşmək təhlükəsinin yaranması realdır.

Tonqada Sakit Okean Adaları Forumu liderlərinin görüşündə o, BBC-yə deyib: "Bu gün Sakit okean dünyanın ən həssas bölgəsidir. Sakit okeanda böyük bir ədalətsizlik var və buna görə də buradayam. Kiçik adalar iqlim dəyişikliyinə töhfə vermir, lakin iqlim dəyişikliyi səbəbindən baş verən hər şey burada ikiqat çoxalır."

BMT dəniz səviyyəsinin qalxması və bunun Sakit okeandakı ada dövlətləri üçün təhlükəsi ilə bağlı iki ayrı hesabat yayıb. Forumdakı çıxışında Quterreş xəbərdarlıq edib ki, sonda "fırtınalı dənizlər hamımız üçün gələcək".

Ümumdünya Meteorologiya Təşkilatının Sakit Okeanın Cənub-Qərbindəki İqlimin Vəziyyəti hesabatında isə deyilir ki, bölgə dəniz səviyyəsinin yüksəlməsi, okeanların istiləşməsi və suyun üçqat turşulaşması ilə üzləşir. Səbəb aydındır: əsasən mədən yanacaqlarından istifadə nəticəsində yaranan istixana qazları planetimizi qızardır. Dəniz, sözün əsl mənasında, istiliyi qəbul edir.

BMT-ının İqlim Dəyişikliyi üzrə Fəaliyyət Qrupu "İstiləşən Planetdə Fırtınalı Dənizlər" adlı hesabat dərc edib və göstərilib ki, dünya dənizlərinin orta səviyyəsi son 3000 illik tarixdə görünməmiş sürətlə yüksəlir.

Hesabata görə, son 30 ildə səviyyə orta hesabla 9,4 sm yüksələrək tropik Sakit okeanda 15 sm-ə çatıb.

Baş katib Quterreş ikinci dəfədir ki, Sakit Okean Adaları Forumu Liderlərinin Toplantısında iştirak edir. İllik toplantı Avstraliya və Yeni Zelandiya da daxil olmaqla 18 Sakit okean adasının liderlərini bir araya gətirir.

Liderlər rəsmi açılış mərasiminə toplaşarkən güclü yağış geniş daşqınlara səbəb olub. Qısa müddət sonra Tonqa bölgəsinin nə qədər həssas olduğunu göstərən 6,9 bal gücündə zəlzələ baş verib.

Bazar ertəsi cənab Quterreş dəniz səviyyəsinin yüksəlməsi ilə dolanışıqları təhlükə altında olan yerli icmalara baş çəkib. Onlar dəniz divarının maliyyələşdirilməsi ilə bağlı qərarın verilməsini yeddi il gözləyiblər.

Baş katib beynəlxalq maliyyə sisteminin çatışmazlıqlarını, xüsusən də kiçik inkişaf etməkdə olan ada dövlətlərinə gəldikdə, bürokratiya, mürəkkəblik, təcililik hissinin olmamasını vurğulayıb.

Quterreşin fikrincə, söhbət inkişaf edən kiçik ada dövlətlərindən gedəndə, bu, özünü xüsusilə qabarıq göstərir: "İnkişaf etməkdə olan ölkələrdə uyğunlaşma üçün daha çox maliyyə vədləri var, amma həqiqət budur ki, biz lazım gələndə bu ölkələrin mövcudluğu üçün lazım olan həmrəylikdən uzağıq".

Bu ilin əvvəlində baş nazir Entoni Albanese mədən yanacaqlarının mərhələli şəkildə dayandırılması çağırışlarına baxmayaraq, Avstraliyanın qaz hasilatını və istifadəsini "2050-ci ilə qədər və sonraya" artıracağını söyləyib.

Quterreşdən BBC-nin Avstraliya kimi regional emissiyaçılara nə deyəcəyini soruşduqda, o deyib ki, əsas məsuliyyəti böyük çirkləndiricilər daşıyır.

Bu olmasa, dünya 2015-ci il Paris razılaşması ilə müəyyən edilmiş 1,5°C həddini keçəcək. Müqavilə əsrin sonuna qədər qlobal istiləşməni 2°C-dən xeyli aşağı səviyyədə məhdudlaşdırmaq və istiləşməni 1,5°C-lik daha təhlükəsiz həddə saxlamaq üçün səy göstərmək məqsədi daşıyır.

Baş katib bildirib ki, yalnız istiləşməni 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaqla bizim Qrenlandiya və Qərbi Antarktida da buz təbəqələrinin dönməz şəkildə məhv və onları müşayiət edən fəlakətlərin qarşısını almaq üçün real şansımız var: "Bu, 2030-cu ilə qədər qlobal emissiyaların 2019-cu il səviyyəsindən 43 faiz, 2035-ci ilə qədər isə 60 faiz azaldılması deməkdir".

Bununla belə, ötən il qlobal emissiyalar 1faiz artıb.

Quterreş vurğulayıb ki, emissiyaların 80 faizini təşkil edən G20 ölkələri bir araya gəlib tullantıları indi azaldacaqlarına təminat vermək öhdəliyi daşıyırlar.

O, G20-ni, eləcə də dünyanın qlobal emissiyalarına əsas töhfə verən şirkətləri qeyd edərək bildirib: "Onların hazırkı tendensiyanı geri döndərmək üçün aydın məsuliyyəti var. Artıq "dayanın" deməyin vaxtıdır".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN" *qəzetinə***

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Azərişıq" ASC Binə qəsəbəsində yenidənqurma işlərini davam etdirir






"Azərişıq" ASC ölkənin bütün regionları ilə yanaşı, Bakının ətraf kənd və qəsəbələrində də elektrik təsərrüfatını yeniləyir. Cənab Prezident İlham Əliyevin tapşırıqlarına əsasən həyata keçirilən yenidənqurma işləri çərçivəsində Xəzər rayonunda nəzərdə tutulan 27 yeni güc mərkəzindən 20-si artıq quraşdırılıb.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, bir sıra KTM-lərdə son tamamlama işləri həyata keçirilir. Rayonun 45 minə yaxın abonenti olan Binə qəsəbəsinin də elektrik şəbəkəsi yenidən qurulur. Binə qəsəbəsində 9 ədəd yeni güc mərkəzi layihələndirilib. Bunlardan 5-i tamamlanıb, 4-ündə isə tamamlanma işləri görülür.

Binə sovxoz ərazisində də tələbata uyğun olaraq yeni güc mərkəzi yaradılır. Qəsəbədə 0.4 və 6 kV-luq elektrik xətləri yenisi ilə əvəzlənir, izolyasiyalı naqillər çəkilir, müasir tipli dayaqlar əkilir, köhnə sayğaclar yenilənir. Bir sıra ərazilərdə elektrik enerjisinin verilişində yaranan çətinliklərin aradan qaldırılması üçün 6/10 kV-luq hava xətlərində təmir işləri aparılır.

Abonentlərin fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi və elektrik enerjisi itkilərinin minimuma endirilməsi məqsədilə "Azərişıq" ASC yenidənqurma işlərini ölkənin bütün regionlarında, həmçinin Qarabağ və Şərqi Zəngəzurda paralel şəkildə davam etdirir.

# Qələbəyə həsr olunmuş "Borc" bədii filminin çəkilişlərinə başlanılır

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) ötən il təşkil etdiyi film layihələri müsabiqəsinin qalib işlərinin çəkilişləri həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, ARKA-nın maliyyə dəstəyi ilə müsabiqənin qaliblərindən olan "Borc" bədii filminin çəkilişləri başlanır.

Bakı Media Mərkəzinin istehsal edəcəyi filmin rejissoru və prodüseri Orman Əliyev, ssenari müəllifi İsmayıl İmandır. 90 dəqiqəlik tammetrajlı bədii film 44 günlük Vətən müharibəsində Qələbəyə həsr olunub. "Borc" filmi Orman Əliyevin rejissor kimi bədii kinoda debütüdür.




Ekran əsəri bir DJ-in koronavirus pandemiyası dövründə başına gələn hadisələrdən bəhs edir. Filmin qəhrəmanı könüllü olaraq həmin ərəfədə baş verən İkinci Qarabağ müharibəsində döyüşməyə yollanır...

Bakı Media Mərkəzi Qələbənin 5-ci ildönümü münasibətilə tamaşaçılara sənədli və bədii filmlər silsiləsi təqdim edəcək. "Borc" bu münasibətlə böyük ekranda göstəriləcək ilk bədii film olacaq. Filmin 2025-ci ilin ilk aylarında təqdim olunması nəzərdə tutulur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri Firudin Hacıyev polkovnik Əbülfəz Atakişiyevə atası

**ATAKİŞİ ATAKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev respublikanın əməkdar mühəndisi, Prezident təqaüdçüsü və "Şöhrət" ordenli

**LİTVİN İBİŞ OĞLU ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

İsaxan Vəliyev və Rasim Əhmədov Kamil və Əbülfəz Atakişiyevlərə ataları

**ATAKİŞİ ATAKİŞİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova dayısı

**AYDIN SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisinin müavini Mehdi Dadaşova dayısı

**AYDIN SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3991**
**Sifariş 1917**

**Qiyməti 60 qəpik**